# ELM

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 35 (1389) ❖ Cümə, 27 oktyabr 2023-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur





# Prezident İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib

**Oktyabrın 26-da 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi olub.**

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Prezident İlham Əliyev təxminən ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının boş ərazisinin yaşıl enerji mənbəyinə çevrildiyini əlamətdar hadisə kimi qiymətləndirərək, Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik edib.

"Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq bu gün - bir qədər sonra biz çox qısa zamanda 1 qiqavat bərpaolunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq. Ona görə də bugünkü tədbiri Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında qardaşlıq əlaqələrinin parlaq nümunəsi hesab edirik... Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim", - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın xarici investisiyalar üçün çox açıq ölkə olduğunu, son 20 il ərzində ölkəmizin ümumi daxili məhsulunun dörd dəfədən çox artdığını deyib. Növbəti illərdə qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirilməsini təmin edəcək dövlət proqramının icrasının planlaşdırıldığını bildirib: "Sizə məlumat vermək istəyirəm ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir".

Dövlətimizin başçısı vurğulayıb ki, bu investisiyalar bizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə edilir.

"Əlbəttə ki, planlarımız enerji dəhlizini, Xəzər-Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir. Ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Biz artıq fəaliyyətimizə başlamışıq, rəhbər komitə bir neçə dəfə toplanıb. Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin - Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq... Biz bütün məqsədlərimizə nail olacağıq və gələcəkdə bu kimi daha çox mərasimlər keçirəcəyik", - deyə dövlətimizin başçısı bildirib.

Sonra Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir mərasimdə çıxış edib.

Daha sonra Prezident İlham Əliyev və nazir Sultan Əhməd Əl-Cabir Qaradağ Günəş Elektrik Stansiyasını işə salıblar.

"Masdar" şirkəti tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olunub və sonda xatirə şəkli çəkdirilib.

Prezident İlham Əliyev həmin gün Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Nümayəndə heyətində Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Süheyl bin Məhəmməd Əl-Məzrui, investisiya naziri Məhəmməd Həssən Əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə dövlət naziri Əhməd Əli Əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Suveydi, "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi olublar.

Prezident İlham Əliyev, ilk növbədə, qonaqlara Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak etdiklərinə görə minnətdarlığını bildirərək, bunu dostluq əlaqələrimizin və böyük hörmətin nümunəsi kimi dəyərləndirib. Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğulayıb.

Prezident İlham Əliyev bugünkü görüşün birgə əməkdaşlığın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirib.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ilk növbədə, ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını ifadə edib. O bildirib ki, Birləşmiş Ərəb Əmirliklərinin ali rəhbərliyi güdrətli ölkə olan Azərbaycanla həmişə strateji tərəfdaşlığın önəmini qeyd edir.

Sultan Əhməd Əl-Cabir vurğulayıb ki, Azərbaycan qısa müddət ərzində qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində ciddi uğurlara nail olub. O, ölkələrimiz arasında mövcud olan əlaqələrin uzunmüddətli tərəfdaşlığa xidmət etməsinə əminliyini bildirib, eyni zamanda, vurğulayıb ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın və strateji tərəfdaşlığın yeni nümunəsinin yaradılması işinə sadiqlik nümayiş etdirir.

Qeyd edək ki, həmin gün Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi də olub.

# Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində





**Oktyabrın 24-də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi və Türk dünyası əlyazmalarının tədqiqi şöbələrinin birgə təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunmuş "Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində" mövzusunda beynəlxalq elmi-nəzəri konfrans keçirilib.**

Konfransın keçirilməsində məqsəd tarixi çox qədimlərə söykənən Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələrinin, müştərək tariximizin, ədəbiyyatımızın əlyazma qaynaqları əsasında dəyərləndirilməsi və aktual problemlərinin müzakirəsi olub.

Tədbirdə giriş nitqi ilə çıxış edən **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** bildirib ki, son illərdə Azərbaycan çoxəsrlik tarixinin ən şərəfli və möhtəşəm dövrünü yaşayır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində torpaqlarımızı erməni işğalçılarından azad etdiyini deyən akademik İsa Həbibbəyli Azərbaycanın bununla bütün dünyaya ədalətli müharibə aparmağın formulunu təqdim etdiyini bildirib. Qeyd edib ki, bu ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində isə Qarabağda Azərbaycanın suverenliyi tam bərpa edildi, oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndidə, Xocalıda dövlət bayrağımızı ucaltması ilə tarixi ədalət ölkə başçısının uzaqgörənliyi sayəsində bərpa olundu: "Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Qarabağda qazandığımız qələbə, torpaqları başqaları tərəfindən zəbt olunan dövlətlər üçün model, başqalarının torpaqlarını işğal edənlər üçün isə bir gözdağı nümunəsidir. Azərbaycan dünyada hər kəsin ərazi bütövlüyünə hörmətlə yanaşır, birgəyaşayışı, sülhsevərliyi, həmrəyliyi aşılayır".

2023-cü ilin Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsi baxımından əlamətdar il olduğunu deyən akademik İsa Həbibbəyli bu istiqamətlərdə AMEA-da onlarla tədbirin, konfransın, seminarların keçirildiyini, monoqrafik sanballı kitabların ərsəyə gəldiyini söyləyib.

Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətlərinin min illərə dayandığını söyləyən və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" sözlərini xatırladan AMEA prezidenti müasir dövrdə dövlətlərimiz arasında sıx əlaqələrin təməlini Ulu Öndərin "Bir millət, iki dövlət" strategiyasının təşkil etdiyini bildirib. Vurğulayıb ki, Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sıx dostluq, qardaşlıq münasibətləri sayəsində bu gün ölkələrimiz arasında münasibətlər özünün ən yüksək dövrünü yaşayır, "Şuşa Bəyannaməsi" isə möhkəmlənmiş hərbi müttəfiqliyimizin hərəkətverici qüvvəsinə çevrilib.

AMEA prezidenti Əlyazmalar İnstitutunun keçirdiyi konfransın Azərbaycan-Türkiyə birliyinin, həmrəyliyinin, qardaşlığının möhkəmlənməsinə sanballı töhfə olacağını deyib, bu tədbirin qardaş Türkiyənin 100 illiyinə Akademiyanın növbəti ərmağanı olduğunu bildirib.

AMEA ilə Türkiyənin elmi qurumları arasında əməkdaşlıq əlaqələrinə toxunan akademik İsa Həbibbəyli hazırda Akademiyanın Türkiyə Elmlər Akademiyası, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu və onun alt qurumları, Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) və bir çox ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Bu il ilk dəfə Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun 90 ildir qeyd etdiyi "Türk Dili bayramı"nın ilk dəfə Türkiyədən kənarda, Azərbaycanda, AMEA-da keçirildiyini xatırladıb.

Həmçinin noyabr ayında Bakıda Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun nəzdində Türk Tarix Qurumu ilə "Rəvandan İrəvana və Qərbi Azərbaycana" mövzusunda konfransın keçiriləcəyini, AMEA-da TÜBİTAK-ın ofisinin açılacağını, TÜBİTAK-ın Milli Akademik Şəbəkə və İnformasiya Mərkəzinin (ULAKBİM) rəhbəri ilə Akademiyada elektron xidmətlər şəbəkəsinin genişləndirilməsinə dair görüşün təşkil olunacağını diqqətə çatdırıb.

AMEA prezidenti konfransın təşkilində göstərdiyi dəstəyə görə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı nümayəndəliyinə minnətdarlığını bildirib, TİKA ilə Akademiyanın sıx əməkdaşlıqda maraqlı olduğunu ifadə edib.

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli** çıxışında tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin daim möhkəmləndiyini, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi qardaş dövlətlər arasındakı münasibətlərin bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətinin nəticəsi olaraq daha yüksək səviyyəyə çatdığını vurğulayıb.

**Türkiyənin Azərbaycandakı səfirliyinin Mədəniyyət və Tanıtım müşaviri Muhittin Macit, TİKA Bakı Proqram koordinatoru Fatih Yılmaz və AMEA-nın vitse-prezidenti v.i.e., akademik Gövhər Baxşəliyeva** çıxışlarında Azərbaycanla Türkiyənin qarşılıqlı münasibətlərini dostluğun, qardaşlığın zirvə nöqtəsi kimi səciyyələndirərək daim yüksələn xətlə inkişaf edən əlaqələrimizin köklərinin tarixin dərin qatlarından, dil və din eyniliyindən, ortaq ənənələrdən, milli mədəniyyətlərimizdən, xalqlarımızın həyat tərzindən və bu kimi digər amillərdən qaynaqlandığını vurğulayıblar.

Tədbirin açılış hissəsindən sonra Türkiyə Cümhuriyyətinin yaranma tarixi ilə əlaqədar qısa videoçarx nümayiş olunub.

Türkiyənin Atatürk Universitetinin professoru **Nimet Yıldırım**, Hüseyn Cavid Ev Muzeyinin direktoru, fil.e.d. **Gülbəniz Babaxanlı**, fil.e.d., dosent **Aygül Hacıyeva**, Pazmany Peter Catholic Universitetinin professoru **Eva Csaki**, Sankt-Peterburq Dövlət Universitetinin dosenti **Nikolay Telitsin**, Əl-Fərabi adına Qazax Milli Universitetinin dosenti **Oraz Sapaşev**, Əlyazmalar İnstitutunun dosenti **Aybəniz Rəhimova**, Adam Mitskeviç adına Poznani Dövlət Universitetinin fəlsəfə doktoru **Jacek Jarmoszko**, Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri, dosent **Lamiyə Rəhimova** məruzələrlə çıxış ediblər.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

# "Cavidşünaslıq" elmi araşdırmalar toplusunun təqdimatı

**Oktyabrın 24-də böyük Azərbaycan şairi, dramaturqu və mütəfəkkiri Hüseyn Cavidin anadan olmasının 141-ci ildönümü münasibətilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev Muzeyində keçirilən geniş tədbirlər çərçivəsində muzeyin ərsəyə gətirdiyi "Cavidşünaslıq" çoxcildliyinin 31 və 32-ci cildlərinin təqdimat mərasimi baş tutub.**





Türkiyə, Qazaxıstan, Macarıstan, Polşa və Rusiyadan olan mətnşünas alimlərin, Bakıda fəaliyyət göstərən ev muzeylərinin rəhbərlərinin və görkəmli cavidşünasların iştirak etdiyi təqdimat mərasimini giriş sözü ilə çoxcildliyin elmi məsləhətçisi, **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** açıb. AMEA rəhbəri çıxışında Hüseyn Cavidin dram və şeirləri ilə XX əsr Azərbaycan ədəbiyyatını zənginləşdirdiyini, unudulmaz əsərləri ilə xalqımızın qəlbində əbədiyyət qazandığını söyləyib. Qeyd edib ki, Hüseyn Cavid məhz öz ideyaları, əsərlərindəki cəsarətli düşüncələrinə görə amansız sovet rejiminin qurbanına çevrilmişdir. Akademik İsa Həbibbəyli görkəmli dramaturqun irsinə Ulu Öndər Heydər Əliyev sahib çıxdığını, Ümummilli Liderin səyləri nəticəsində ədibin nəşinin Sovet hakimiyyəti illərində uzaq Sibirdən ölkəmizə gətirildiyini, Hüseyn Cavidin yenidən xalqımıza qazandırıldığını bildirib.

Cavid yaradıcılığının tədqiq olunmasının müstəqillik illərində yeni mərhələyə qədəm qoyduğunu və geniş araşdırmaların aparıldığını deyən akademik İsa Həbibbəyli bu tədqiqatların mərkəzində Hüseyn Cavidin Ev Muzeyinin dayandığını vurğulayıb. AMEA prezidenti "Cavidşünaslıq" araşdırmalar toplusunu cavidşünaslığın salnaməsi, onun yaradıcılığına və şəxsiyyətinə ucaldılan abidə kimi qiymətləndirib, toplunun 31 və 32-ci cildlərinin çap edilib tədqiqatçıların ixtiyarına verilməsinin yüksək əməyin nəticəsi olduğunu bildirib. Qeyd edib ki, "Cavidşünaslıq" toplusu həm humanitar elmimiz üçün bir hadisə, həm də ədəbiyyatşünaslığımız tarixində ilkin fundamental nəşrdir: "Çünki bu vaxta qədər nəinki ev muzeyləri arasında, hətta ölkədə konkret bir sənətkar haqqında olan materiallar bu formatda bir yerə toplanmamış, çoxcildlik halında nəşr olunmamışdır. Bu toplu və ədibin ev muzeyinin çap etdirdiyi digər nəşrlər onu göstərir ki, Hüseyn Cavidin Ev Muzeyi ölkəmizdə cavidşünaslığın əsas mərkəzidir".

AMEA rəhbəri Hüseyn Cavidin elmi tərcümeyi-halının hazırlanması, eləcə də "Hüseyn Cavid ensiklopediyası"nın ərsəyə gətirilməsinin ədiblə bağlı qarşıda nəzərdə tutulan hədəflərdən olduğunu bildirib, bu işdə Hüseyn Cavidin Ev Muzeyinin üzərinə böyük məsuliyyət düşdüyünü söyləyib.

Akademik İsa Həbibbəyli çıxışının sonunda bildirib ki, Hüseyn Cavidin 100 il öncə əsərlərində, düşüncəsində əks etdirdiyi turançılıq, türkçülük ideyaları bu gün artıq həqiqətə çevrilib, Türk dünyası Türk Dövlətləri Təşkilatı adı altında özünün iqtisadi, siyasi, elmi, mədəni birliyini təmin edib.

Daha sonra çıxış edən **AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli** "Cavidşünaslıq" araşdırmalar toplusunun Hüseyn Cavid yaradıcılığı və şəxsiyyətinin vəhdətinin mükəmməl təzahürü olduğunu bildirib. Toplunun təqdimatı keçirilən növbəti cildlərinə 2018-2019-cu illərdə ölkədə və xaricdə dövri mətbuatda işıq üzü görən cavidşünaslıq materiallarının toplandığını nəzərə çatdırıb. Alim qeyd edib ki, hər iki cilddə Cavidin əsərlərini tədqiq edən müəlliflərin həm ədəbiyyatşünaslıq, həm də sənətşünaslıq, mətnşünaslıq, mənbəşünaslıq, folklorşünaslıq, fəlsəfə və s. nöqteyi-nəzərindən tədqiqini əks etdirən materiallar yer alıb. Vurğulayıb ki, bu baxımdan "Cavidşünaslıq" toplusunun bu cildlərini də əvvəlki cildlər kimi, həm də multidissiplinar araşdırmalar toplusu olaraq xarakterizə etmək mümkündür.

Təqdimat mərasimində çıxış edən cavidşünas alimlər - Hüseyn Cavidin Ev Muzeyinin Cavidşünaslıq şöbəsinin müdiri, **fil.e.d., prof. Gülşən Əliyeva-Kəngərli** və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, **fil.e.d. Lütviyyə Əsgərzadə** də toplunun bu cildlərinin elmi əhəmiyyətindən danışıb, muzeyin bu istiqamətdə fəaliyyətinin təkcə Cavidşünaslığa deyil, ümumilikdə humanitar elmimizə böyük xidmət olduğunu bildiriblər.

Sonda təqdim olunan hər iki cildin tərtibçisi və "Ön söz"ün müəllifi, **Hüseyn Cavidin Ev Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, fil.e.d. Gülbəniz Babaxanlı** çıxış edərək qonaqlara öz təşəkkürünü bildirib. Daha sonra muzeyin cari ildə nəşr etdirdiyi kitablar haqqında məlumat verib. Bu il nəşr edilən altı müxtəlif adda kitabın, o cümlədən təqdimatı keçirilən "Cavidşünaslıq" toplusunun 31-32-ci cildlərinin "Heydər Əliyev İli"nə də bir hədiyyə olduğunu vurğulayıb. Bildirib ki, məhz Ümummilli Liderin diqqət və qayğısı nəticəsində Azərbaycan Cavidşünaslığı indiki mərhələyə yüksələ bilib. Qeyd edib ki, toplunun bu cildləri də muzeyin digər nəşrləri kimi, Hüseyn Cavid irsinin öyrənilməsi və gənclər arasında təbliği baxımından əhəmiyyətlidir. Onun sözlərinə görə, bu cildlərə daxil edilən məqalələr müasir dövrün cavidşünasları üçün də qiymətli istinad mənbəyidir.

Təqdimat mərasiminin sonunda qonaqlar dahi şairin portreti fonunda xatirə şəkli çəkdiriblər.

# Ölkəmizin ilk elmi təşkilatı - *Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti*

**Oktyabrın 25-də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.**



Tədbiri giriş sözü ilə açan **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** konfransın keçirilməsində başlıca məqsədin Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin XX əsrdə Azərbaycan elminin təşəkkülündəki rolunu qiymətləndirmək, araşdırmaçılar tərəfindən tədqiq olunmayan istiqamətlərini gündəmə gətirməklə yenidən tədqiqata cəlb etmək və çoxşaxəli fəaliyyətinin ictimaiyyətə təqdim edilməsi olduğunu bildirib. Qeyd edib ki, 1923-cü il noyabr ayının 2-də təsis edilmiş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycan elminin təşkilatlanmasında və dövrün ziyalılarının bir qurum altında toplanması istiqamətində ölkəmizin yaranmış ilk elmi təşkilatıdır.

Cəmiyyətin qısa bir müddət ərzində fəaliyyəti ilə öz dövrünün qabaqladığını, bütün elm sahələri üzrə təşkilatlandığını, Azərbaycanı, onun dilini, tarixini, folklorunu, adət-ənənələrini, təbiətini, geologiyasını öyrəndiyini deyən akademik İsa Həbibbəyli həmin dövr ərzində görülmüş işləri yüksək qiymətləndirib, atılmış bu addımların sonrakı illərdə Akademiyanın yaranması üçün münbit zəmin formalaşdırdığını söyləyib.

AMEA prezidenti Cəmiyyətin yaranması ilə həm də elmi potensialın üzə çıxması və qorunması kimi mühüm bir vəzifəni yerinə yetirdiyini, Naxçıvan və digər rayonlarda bölmələrinin formalaşması ilə regionlarda da elmin inkişafına öz töhfəsini verdiyini bildirib.

Akademik İsa Həbibbəyli bugünkü tədbirin başlıca məruzəçiləri professor Asif Rüstəmli və filologiya elmləri doktoru Həmidə Əliyevanın ölkəmizdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin əsas tədqiqatçıları olduqlarını, sözügedən alimlərin həmmüəllifliyi ilə Cəmiyyətin fəaliyyətinin bütün sahələrini əks etdirən kitabın ərsəyə gətirilməsini təklif edib və nəşrin çapı üçün zəruri dəstəyi verəcəyini söyləyib. Qeyd edib ki, hazırlanacaq bu kitab, eyni zamanda AMEA-nın 2025-ci ildə keçiriləcək 80 illiyinə başlıca hədiyyə olacaq.

Akademik İsa Həbibbəyli çıxışının sonunda Cəmiyyətin 100 illiyinin Akademiya və respublika səviyyəsində qeyd olunduğunu, bununla əlaqədar AMEA-nın Rəyasət Heyəti tərəfindən Tədbirlər planı hazırlandığını diqqətə çatdırıb.

**Filologiya elmləri doktoru, professor Asif Rüstəmli** isə "Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətində ədəbiyyat məsələləri" adlı məruzəsində qeyd edib ki, Cəmiyyətin təsis tarixi müxtəlif elmi araşdırmalarda 1923-cü il noyabr ayının 2-si göstərilsə də, yeni üzə çıxarılmış faktlar iddia olunan tarixdən fərqlidir: "Mövcud arxiv sənədlərinə əsasən qeyd etməliyik ki, həmin ilin oktyabr ayında təsis üçün Təşkilat komissiyası yaradılmış, "Kommunist" qəzetinin redaktoru Həbib Cəbiyev Komissiyanın sədri, V.A.Ryumin isə katib seçilmişdir. Təşkilat komissiyasının 26 oktyabr 1923-cü ildə keçirilən iclasında Xalq Maarif Komissarının müavini Tağı Şahbazi və Başpeşətəhsilin müdir müavini Əhməd Pepinov Komissiyaya üzv qəbul olunmuş, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin (öncədən 44 nəfərlik tərkibi nəzərdə tutulsa da) 29 nəfərlik təsisçilərinin ilk siyahısı təsdiqlənmişdir. Həmin iclasda Cəmiyyətin müvəqqəti fəaliyyət göstərəcəyi ünvan və məkan da müəyyən edilmiş, yeni qurum indiki Əbdülkərim Əlizadə və Tərlan Əliyarbəyov küçələrinin kəsişdiyi tində yerləşən 5 saylı binada, mülki mühəndislərdən A.Kalgin və Q.Termikelovun layihəsi əsasında 1901-ci ildə tikilmiş, sovet dönəminə qədər "Tiflis Ticarət Bankı" kimi tanınan, Maarif Evində (sonralar bu bina Bilik Cəmiyyətinə də verilib) fəaliyyətə başlamışdır".

Azərbaycan Dillər Universitetinin əməkdaşı, **filologiya elmləri doktoru Həmidə Əliyeva** isə "Azərbaycanda Tədqiq və Tətəbbö Cəmiyyətinin öyrənilmə tarixi" adlı məruzəsində 90-cı illərin ortalarından etibarən bu istiqamətdə tədqiqatlar apardığını, 1999-cu ildə monoqrafiya çap etdirdiyini söyləyib.

Tədbirdə, həmçinin Ədəbiyyat İnstitutunun əməkdaşları - filologiya elmləri doktorları **Gülər Abdullabəyova, Yaşar Qasımbəyli,** filologiya üzrə fəlsəfə doktoru **Zakirə Əliyeva** və **Ülkər Hüseynova** çıxış edərək Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin hansı tarixi zərurətdən yarandığını və Azərbaycan elminin inkişafındakı tarixi xidmətlərinə toxunublar.



# Milli Məclis yanında Toponimiya Komissiyasının iclası keçirilib

**Oktyabrın 23-də Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya Komissiyasının iclası keçirilib.**

**AMEA-nın prezidenti, Toponimiya komissiyasının sədri, millət vəkili, akademik İsa Həbibbəyli** gündəliyə Abşeron rayonunun inzibati ərazisində yeni salınmış yaşayış məntəqəsinə ad verilməsi barədə məsələ daxil edildiyini diqqətə çatdırıb. Komissiya sədri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi Qələbədən danışıb, Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə dövlət Bayrağının ucaldılması və bununla Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi ilə bağlı fikirlərini bölüşüb.

Sədr bölgədə yaranmış yeni reallıqlar çərçivəsində işğaldan azad olunmuş ərazilərdə bir çox yer adlarının dəyişdirilməsi ilə əlaqədar məsələlərə Toponimiya komissiyasında baxıldığını və müvafiq qərarların qəbul edildiyini diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli iclasda müzakirəyə çıxarılan məsələnin mahiyyəti barədə danışaraq, Abşeron rayonunun inzibati ərazisində yeni salınmış yaşayış məntəqəsinə ad verilməsi ilə bağlı vətəndaşlardan müraciət daxil olduğunu deyib. Qeyd edib ki, müraciətdə bu yaşayış məntəqəsinə "Şəfəq" adının verilməsi təklif olunur.

Məsələ ətrafında aparılan müzakirələrdə komissiyanın sədr müavini **Sevinc Fətəliyeva,** komissiyanın üzvləri - parlamentin komitə sədri **Musa Quliyev,** deputat **Sabir Rüstəmxanlı,** Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri, akademik **Möhsün Nağısoylu,** AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi **Akif İmanlı,** AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi **Elşad Abışov,** Milli Məclisin Regional məsələlər komitəsinin sədri **Siyavuş Novruzov,** parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri **Hacı Mirhəşim Seyid** çıxış ediblər.

İclasda Abşeron rayonunun inzibati ərazisində salınmış yeni yaşayış məntəqəsinin "Şəfəq" adlandırılması məqsədəmüvafiq hesab olunub.

Tədbirdə AMEA Rəyasət Heyətinin elmi katibi **Coşqun Məmmədov** və parlament Aparatının müvafiq şöbələrinin əməkdaşları da iştirak ediblər.

# Çağdaş Türkman ədəbiyyatına baxış

*Dr. Şəmsəddin Kuzəçiyə Ədəbiyyat İnstitutunun "Fəxri doktoru" diplomu təqdim edilib*

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Çağdaş Türkman ədəbiyyatı" mövzusunda elmi seminar keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin qərarı ilə yaradılmış İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının sədri, akademik Teymur Kərimli, kərkükli şair, tədqiqatçı, musiqişünas, ədəbiyyatşünas, ictimai xadim Dr. Şəmsəddin Kuzəçi, Qazaxıstandan gəlmiş alimlər və Akademiyanın elmi əməkdaşları iştirak ediblər.

Əvvəlcə seminarın mövzusuna həsr olunmuş kitab sərgisinə baxış keçirilib.

Tədbiri giriş sözü ilə **akademik İsa Həbibbəyli** açaraq İraq-Türkman və Azərbaycan ədəbiyyatının əlaqələrindən danışıb, xoryat janrında yazılan əsərlərin Kərkük ədəbiyyatında xüsusi rolunu vurğulayıb. Qeyd edib ki, Kərkük ədəbiyyatı mövzusunda 70-dən artıq kitabın müəllifi olan Şəmsəddin Kuzəçi İraq-Azərbaycan, Kərkük-Azərbaycan elmi-ədəbi əlaqələrinin inkişaf etdirilməsində böyük xidmət göstərir. Bu gün İraq-Azərbaycan ədəbi, mədəni əlaqələrinin yüksək səviyyədə inkişaf etməsində olduğunu deyən akademik İsa Həbibbəyli bu əlaqələrin Kərkükdə yaşayan soydaşlarımızın öz ana dillərində məktəblərini, mədəniyyətini qurub daha da möhkəmlətməsinə xidmət etdiyini söyləyib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, AMEA Rəyasət Heyətinin 12 iyul 2023-cü il tarixli iclasında İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurası yaradılıb, şuraya İraq-Türkman tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, etnoqrafiyası və folkloru ilə bağlı araşdırmaların əlaqələndirilməsi və sistemli koordinasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi tapşırılıb. AMEA rəhbəri bu günlərdə şuranın ilk iclasının keçirildiyini, "İraq-Türkman ləhcəsinin tarixi-dialektoloji təsviri" mövzusunda müzakirələrin aparıldığını vurğulayıb, bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini bildirib.

AMEA rəhbəri İraq-Türkman alimlərinin elmi məqalələrindən ibarət kitabın çap olunması zərurətindən də söz açıb.

Daha sonra akademik İsa Həbibbəyli Dr. Şəmsəddin Kuzəçiyə Azərbaycan-İraq-Türkman ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki görkəmli xidmətlərinə, Azərbaycan elmi-ədəbi dairələri ilə səmərəli əlaqələrinə görə Ədəbiyyat İnstitutunun "Fəxri doktoru" diplomunu təqdim edib.

Sonra çıxış edən **Şəmsəddin Kuzəçi** tədbirin təşkilinə və onun fəaliyyətinə verilən yüksək qiymətə görə akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirib. "Çağdaş Türkman ədəbiyyatı" mövzusunda məruzə ilə çıxış edən Ş.Kuzəçi İraq türkmanlarının İraqda məskunlaşma tarixinə nəzər salıb. Çağdaş Türkman ədəbiyyatının ümumi mənzərəsini yaradan tədqiqatçı görülmüş işlər barədə ətraflı məlumat verib, çağdaş Türkman şairlərinin ikicildlik antalogiyasını hazırladığını qeyd edib.

AMEA-nın İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının sədri, **akademik Teymur Kərimli** və şuranın sədr müavini, filologiya elmləri doktoru, **professor Qəzənfər Paşayev** görülən işlərin əhəmiyyətini yüksək qiymətləndirib, şuranın geniş Tədbirlər planının hazırlandığını bildiriblər.

Həmçinin qazaxıstanlı alim **Ağmaral İsmaqulova,** filologiya elmləri doktoru, professor **İmamverdi Həmidov** və tarix elmləri doktoru **Güllü Yoloğlu** çıxış edərək bu tədbirin çağdaş Türkman ədəbiyyatı ilə bağlı gələcək işlərə böyük təkan verəcəyinə əminliklərini ifadə ediblər.

# YAP Yasamal rayon təşkilatının AMEA Rəyasət Heyəti aparatı üzrə ilk ərazi partiya təşkilatının iclası

**Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının AMEA Rəyasət Heyəti aparatı üzrə ilk ərazi partiya təşkilatının iclası keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Yasamal rayon AMEA Rəyasət Heyəti üzrə ilk ərazi partiya təşkilatının sədri, texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov, partiya fəalları və aidiyyəti şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə açan **akademik İsa Həbibbəyli** AMEA-nın YAP təşkilatları, xüsusilə Yasamal rayon təşkilatı ilə sıx əməkdaşlıq etdiyini, mütəmadi birgə tədbirlərin keçirildiyini söyləyib. Qeyd edib ki, AMEA Ulu Öndərin ideallarını, Prezident İlham Əliyevin son 20 ildə əldə etdiyi möhtəşəm uğurları və Yeni Azərbaycan Partiyasının çağırışlarını təbliğ etməyi özünün şərəfli borcu hesab edir.

Əsas təməlləri Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın Prezident İlham Əliyevin liderliyində hərbi, iqtisadi, elmi, mədəni, təhsil və digər bir çox sahələrdə öz inkişafının ən yüksək mərhələsinə çatdığını deyən akademik İsa Həbibbəyli bu gün Azərbaycanın adının dünyanın inkişaf etmiş ölkələri, Prezident İlham Əliyevin adının isə dünya liderləri ilə bir sırada çəkildiyini söyləyib. Vurğulayıb ki, Prezident İlham Əliyev "Sözümüz imzamızdır" deyərək son 20 ildə qarşıya qoyduğu bütün hədəflərə ən yüksək səviyyədə çatmaqla, ilk növbədə Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdi, ölkəmizi iqtisadiyyatı güclü, neftdən asılı olmayan dövlətə çevirdi, qeyri-neft sektorunun dövlət büdcəsindəki payı ildən-ilə genişləndi və bu proses hazırda da davam edir.

Son illərdə Prezident İlham Əliyevin liderliyində ölkəmizin beynəlxalq müstəvidə rolunun artdığını deyən AMEA rəhbəri Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini, dövlət başçısının təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı xüsusi sessiyasının çağırıldığını, ümumdünya miqyaslı qərarların qəbul olunduğunu söyləyib.

AMEA prezidenti, həmçinin Ali Baş Komandanın liderliyində Azərbaycan ordusunun ən qısa müddətli və ədalətli müharibəni uğurla həyata keçirdiyini, düşmənin 30 illik işğalına son qoyulduğunu, 15 oktyabrda Xankəndi şəhərində Azərbaycan bayrağının ucaldılması ilə ərazi bütövlüyümüzün tam bərpa edildiyini və Prezident İlham Əliyevin adının Azərbaycan tarixinə ədəbi olaraq qızıl hərflərlə yazıldığını vurğulayıb.

Akademik İsa Həbibbəyli YAP Yasamal rayon təşkilatı ilə əlaqələrin bundan sonra da uğurla davam etdirilməsi və gücləndirilməsi üçün zəruri dəstəyin veriləcəyini söyləyərək təşkilatın sədri Bəxtiyar Nəbiyevə "Şuşa" kitabını hədiyyə edib.

Sonra **YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev** çıxış edib. Ulu Öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" sözlərini xatırladan Bəxtiyar Nəbiyev ideoloji işin və partiya sıralarının genişlənməsi istiqamətində tədbirlərin bundan sonra da uğurla yerinə yetiriləcəyini bildirib.

Prezident İlham Əliyevin Ulu Öndərin ideyalarını uğurla həyata keçirdiyini deyən sədr ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpa edildiyini, dövlət başçısının da dediyi kimi, bu qələbənin Azərbaycan əsgərinin, zabitinin qəhrəmanlığı sayəsində əldə olunduğunu vurğulayıb.

Sonra çıxış edən AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru v.i.e., tarix üzrə fəlsəfə doktoru **Fərhad Quliyev** rəhbərlik etdiyi müəssisədə dövlət başçısının tapşırıqlarından irəli gələrək həyata keçirilən tədbirlər, xüsusilə işğaldan azad olunmuş ərazilərdə aparılan arxeoloji tədqiqatlar barədə məlumat verib. Son aylarda müəssisədə yeniləşmə prosesinin getdiyini, kadr potensialına xüsusi diqqət yetirildiyini deyib və Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu üzrə YAP ərazi ilk partiya təşkilatının aktiv fəaliyyət göstərməsi üçün zəruri dəstəyin veriləcəyini bildirib.

İclasda ərazi partiya təşkilatlarına seçkilər də keçirilib. Aynur Günəşli YAP Yasamal rayon təşkilatının AMEA Rəyasət Heyəti aparatı üzrə ərazi partiya təşkilatının sədrinin müavini, Bəxtiyar Cəlilov isə YAP Yasamal rayon təşkilatının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu üzrə ərazi partiya təşkilatının sədri seçilib.

Həmçinin iclasda AMEA-nın İctimai Elmlər Bölməsinin elmi katibi Zümrüd Mənsimovaya və AMEA Rəyasət Heyəti aparatının Sənədlərlə iş və protokol şöbəsinin müdir müavini Sevil Adıgözəlovaya Yeni Azərbaycan Partiyasına yeni üzvlük vəsiqələri təqdim olunub.

Sonda çıxış edən akademik İsa Həbibbəyli bundan sonra da ölkə başçısının, dövlətçiliyimizin və Yeni Azərbaycan Partiyasının çağırışlarından irəli gələrək AMEA-nın üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə və məsuliyyətlə gələcəyini bildirib.

# Akademik İsa Həbibbəyli "Şirvanşahların minilliyi" və "Kəlam və fırça" kitablarının təqdimatında çıxış edib





**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli "PAŞA Həyat" şirkətinin dəstəyi ilə "İRS" silsiləsi çərçivəsində nəşr edilən "Şirvanşahların minilliyi" və "Kəlam və fırça" kitablarının təqdimat mərasimində iştirak edib.**

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan tarixinin gələcək nəsillərə ötürülməsində "PAŞA Həyat" və "İRS" nəşriyyat evinin birgə əməkdaşlığı çərçivəsində nəşr olunan kitabların əhəmiyyətindən bəhs edib. Bildirib ki, "İRS" seriyasından olan "Şirvanşahların minilliyi" kitabında Şirvanşahlar dövlətinin iqtisadi, beynəlxalq və digər əlaqələrinə aid yeni yanaşmalar, faktlar qeyd edilib. Kitabın Azərbaycançılıq ideyalarını izləyən qiymətli bir kitab olduğu diqqətə çatdırılıb.

Tədbirdə çıxış edən "İRS" jurnalının baş redaktoru Musa Mərcanlı bu günədək "İRS" seriyasından olan bütün kitabların oxucular tərəfindən çox maraqla qarşılandığını bildirib.

"Minillik tarixi olan Şirvanşahlar dövlətinin Azərbaycan tarixində mühüm yeri var. Çünki min il ərzində o dövlətdə elə proseslər baş verib ki, sözün həqiqi mənasında bütün dünya xalqları üçün bir örnəkdir", - deyə baş redaktor diqqətə çatdırıb.

"PAŞA Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov bu kitabların ölkə tarixinin, mədəniyyətinin nümayiş etdirilməsində əhəmiyyətli olduğunu qeyd edib, tariximizin hər kəs tərəfindən dərindən araşdırılmasının vacibliyini, "PAŞA Həyat" şirkətinin korporativ sosial məsuliyyət fəaliyyətində bu vacib istiqamətin mühüm önəm kəsb etdiyini vurğulayıb. O, indiyədək 20-dən çox kitabın buraxıldığını və bu cür layihələrin bundan sonra da davam etdiriləcəyini bildirib.

Tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov təqdim olunan kitabların əhəmiyyətindən danışıb.

Təqdim olunan kitablar Şirvanşahların hakimiyyət tarixini əhatə edən "Şirvanşahların minilliyi", digəri isə Təbriz miniatür məktəbinin öz qiymətli və zəngin nümunələrini bizə təqdim edən "Kəlam və fırça"dır. Kitablar Azərbaycan ilə yanaşı beynəlxalq səviyyədə Azərbaycan, rus və ingilis dillərində yayımlanmışdır.

Təqdimat mərasimində rəsmi qonaqlar, dövlət və ictimaiyyət nümayəndələri, media mənsubları iştirak ediblər.

Tədbir bədii hissə ilə davam edib.

Xatırladaq ki, "İRS" silsiləsi çərçivəsində ərsəyə gələn kitablar cəmiyyətimizin və ölkəmizin mədəni sərvətlərini tanıtmaq üçün əhəmiyyətli rol oynayır. Azərbaycanın qədim tarixini, füsunkar təbiətini, çoxəsrlik mədəniyyətini özündə əks etdirən yüksəkkeyfiyyətli çap məhsullarının hazırlanmasına tarixçilər və xarici mütəxəssislər də cəlb olunur.

"PAŞA Həyat" və "İRS" nəşriyyat evinin birgə əməkdaşlığı çərçivəsində indiyədək çox sayda kitab işıq üzü görüb. Bunlar nəşr olunmuş "Qədim qalanın yuxuları", "Qobustan - minilliklər kitabı", "Təbrizin sehrli nağılları", "Qədim və gözəl Qarabağ", "Məftun edən şəhər", "Bakı simfoniyası", "Daş keşikçilər", "Zəfər Salnaməsi", "Qarabağ - əsrlərin salnaməsi", "Gəncə - Nizami yurdu", "Şəki - Gözəllik Sehri", "Salam, Azərbaycan!", "Qarabağın Qara Kitabı" və "Qarabağ - Qələbə Yolları ilə", "Şuşa. Zirvədən uca", "Şuşa. Qarabağın ulduzu", "Gizli ölüm toxumları" və "Dirçəliş. Başlağıc" kitablarıdır.

# "Radiasiya təhlükəsizliyi problemləri: regional aspektlər" mövzusunda elmi konfrans

**Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutu Naxçıvan Dövlət Universiteti ilə birgə akademik Mahmud Kərimovun 75 illik yubileyi münasibəti ilə "Radiasiya təhlükəsizliyi: regional aspektlər" mövzusunda elmi-texniki konfrans keçirib.**



Konfransın açılışı Naxçıvan Dövlət Universitetinin Konqres zalında təşkil olunub.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru E.İsayev elmlə təhsilin inteqrasiyasından, qarşılıqlı əməkdaşlığın əhəmiyyətindən danışıb.

Sonra çıxış edənlər AMEA-nın birinci vitse prezidenti vəzifəsini icra edən, akademik A.Həşimov, Azərbaycan Dövlət Pedaqoji Universitetin elmi işlər üzrə prorektoru, professor A.Zamanov, akademik İsmayıl Hacıyev və akademik Adil Qəribov Mahmud Kərimovun AMEA-nın prezidenti kimi göstərdiyi çox tərəfli fəaliyyətindən, elmin idarə olunması, kadr siyasəti sahəsində həyata keçirdiyi yeniliklərdən, həmin illərdə hazırladığı Elmin İnkişafı üzrə Milli Strategiyadan və elmi təşkilati fəaliyyətindən söz açıblar.

Açılış mərasiminin sonunda M.Kərimovun laboratoriyasında çalışmış, onun tələbəsi olmuş R.Mehdiyeva akademikin həyatı, elmi və ictimai fəaliyyəti ilə konfrans iştirakçılarını tanış edib, bu unudulmaz insanın elmi-tədqiqata olan sonsuz məhəbbətindən söz açıb.

Konfrans işini bölmə iclaslarında davam etdirib.

Ənənəvi çıxışlarda AMEA-nın müxbir üzvü, Oqtay Səmədov, f-r-e.d., professorlar R.Mədətov, R.Sərdarlı, b.e.d. S.Məmmədli, f.ü.f. doktorları F.Hümbətov, H.Mahmudov, Y.Cəfərov, N.Rzayev, C.Nağıyev və b. elmi məruzələrlə çıxış ediblər.

Hibrid formada təşkil edilən konfransda digər iştirakçılar onlayn çıxış ediblər.

# Elmimizin Ziya Bünyadov zirvəsi

**Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünkü nəsillərə, dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir.**

*Heydər ƏLİYEV*

**"Akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bütün elmi ictimaiyyətimiz kimi AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun çoxsaylı kollektivi tərəfindən də böyük ruh yüksəkliyi və məmnuniyyətlə qarşılanmışdır.**

Sovet İttifaqı Qəhrəmanı, Dövlət mükafatı laureatı, Azərbaycan şərqşünaslıq və tarix elminin korifeyi akademik Ziya Musa oğlu Bünyadovun həyat və yaradıcılığı parlaq bir ömrün güzgüsü olaraq zəngin yaradıcılıq və qəhrəmanlıq yolunu əks etdirir.

O, öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayaraq orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınmış, geniş oxucu kütlələrinin rəğbətini və məhəbbətini qazanmışdır.

Ziya Musa oğlu Bünyadov 21 dekabr 1923-cü ildə Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olmuşdur. O, on altı yaşında ikən Göyçay şəhərində orta məktəbi bitirmiş və Bakı Hərbi Piyadalar Məktəbinə daxil olmaq üçün yaşını iki il artırmışdır.

Hərbi məktəbi bitirdikdən sonra (1941) leytenant Z.M.Bünyadov Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuş, Qafqaz, eləcə də Ukrayna, Moldova, Belorus, Polşa və Berlin şəhərləri uğrunda döyüşlərdə fəal iştirak etmişdir. İki dəfə yaralanmış və kontuziya almışdır. Hərbi tapşırığı yerinə yetirərkən göstərdiyi şücaətə, qəhrəmanlıq və igidliyə görə 27 fevral 1945-ci ildə Z.M.Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Faşist Almaniyası məğlub olandan sonra bir il Berlin şəhərinin Pankov rayonunun komendant köməkçisi olan gənc zabit Z.Bünyadov şəhərin təsərrüfat və mədəni həyatının bərpa edilməsində fəal iştirak etmişdir. Keçmiş ADR hökuməti Ziya Bünyadovun xidmətini yüksək qiymətləndirərək onu "Vaffenbrudersaft" və "Artur Bekker" qızıl medalları ilə, fəxri çekist adı ilə təltif etmişdir.

1946-cı ildə Sovet Ordusu sıralarından tərxis olunduqdan sonra Z.M.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə isə həmin institutun aspiranturasına daxil olmuşdur. Tələbəlik illərində görkəmli Sovet ərəbşünası prof. Y.A.Belyayev onun müəllimi olmuşdur. Böyük şərqşünasla yaxınlıq Ziya Bünyadovun sonrakı fəaliyyətində, onun ərəbşünas və mediyevist kimi formalaşmasında həlledici rol oynamışdır. 1954-cü ildə Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada Z.M.Bünyadov ilk tədqiqat işi olan "Afrikada İtaliya imperializmi" adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə başa çatdıraraq uğurla müdafiə etmişdir.

1954-cü ildə Z.M.Bünyadov Bakıya qayıtmış və Azərbaycan EA Tarix İnstitutunda böyük elmi işçi vəzifəsinə qəbul edilmişdir.

Z.M.Bünyadov 1958-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi olmuşdur. 1964-1981-ci illərdə Z.M.Bünyadov Yaxın və Orta Şərq Xalqları İnstitutunun (Şərqşünaslıq İnstitutu o vaxt belə adlanıb - G.B) Şərqin orta əsrlər tarixi şöbəsinə rəhbərlik etmiş, 1981-1986-cı illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində işləmişdir.

Ziya Bünyadovun elmi yaradıcılığı iki istiqamətdə inkişaf etmişdir: Yaxın və Orta Şərq ölkələrinin feodalizm dövrü tarixinin tədqiqi və Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair orta əsr müəlliflərin əsərlərinin araşdırılması, izahlı tərcüməsi və nəşri.

1964-cü ildə Z.M.Bünyadov tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda dissertasiya müdafiə etmişdir. 1965-ci ildə Ali Attestasiya Komissiyası ona professor adı vermişdir.

1965-ci ildə çap olunan "Azərbaycan VII-IX əsrlərdə" kitabı Z.M.Bünyadova Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrəti qazandırmışdır. Bu, Azərbaycan tarixinin Ərəb xilafəti dövrünə dair Sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi. Burada geniş şəkildə tədqiqata cəlb olunmuş ərəb, fars, türk, erməni, gürcü mənbələrinin, o vaxtadək məlum olmayan və çətin əldə edilən yazılı abidələrin dərin tədqiqi və təhlili sayəsində ərəb işğalı ərəfəsində və xilafət dövründə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatı hərtərəfli təhlil olunmuş, Azərbaycanın orta əsrlər tarixinə dair bir sıra mühüm problemlər ətraflı şəkildə araşdırılaraq öz həllini tapmışdır. Əsərdə xilafətə qarşı xalq kütlələrinin mübarizəsinə xüsusi yer verilmiş, Babəkin başçılıq etdiyi xürrəmilər hərəkatı geniş şəkildə işıqlandırılmışdır.

1967-ci ildə Z.M.Bünyadov Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, 1970-ci ildə "Azərbaycan SSRİ Elmlər Akademiyasının xəbərləri. İctimai elmlər seriyası (tarix, fəlsəfə və hüquq seriyası)" jurnalının baş redaktoru təyin olunmuşdur.

1978-ci ildə Z.M.Bünyadov "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" adlı monoqrafiyasını nəşr etdirmişdir. Alimin çoxillik əməyinin məhsulu olan bu sanballı tədqiqat işində Səlcuq dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafı araşdırılmışdır. Kitabda Azərbaycanın o dövrdəki siyasi tarixi məsələləri ilə yanaşı XII əsrin ikinci yarısı - XIII əsrin birinci rübündə Orta Şərqin feodal sülalələrinə mənsub hökmdarların qurduğu dövlətlərin, o cümlədən, Azərbaycan Eldəniz Atabəyləri dövlətinin dövrün siyasi və mədəni həyatında mühüm rol oynadığı göstərilmişdir. Əsərdə həmçinin o dövrdə Qafqazda siyasi şəraiti xarakterizə edən bir çox qiymətli və ilk dəfə elmi dövriyyəyə daxil edilmiş materiallar yerləşdirilmişdir. Z.M.Bünyadov öz monoqrafiyasında Azərbaycanın və qonşu ölkələrin orta əsr tarixinə dair bir sıra problemlərin gələcək həlli, kifayət qədər öyrənilməmiş məsələlərin tədqiqi üçün böyük əhəmiyyət kəsb edən əsaslı elmi nəticələr əldə etmiş, bununla da feodalizm dövrü tarixinin başlıca problemlərinin, Şərqdə feodalizmin inkişafının ümumi qanunauyğunluqları və fərdi xüsusiyyətləri kimi mühüm nəzəri məsələlərin həllinə böyük töhfə vermişdir.

Görkəmli alimin "Azərbaycan Atabəylər dövləti" əsəri ölkəmizin və qonşu ölkələrin tarixinin çox az öyrənilən dövrünün araşdırılmasında mühüm mərhələ olduğuna görə elmi ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilmişdir. Əsər 1980-ci ildə elm və texnika sahəsində Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

1982-ci ildə Z.M.Bünyadov Azərbaycan SSRİ Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Elə həmin ildə türk xalqları tarixinin öyrənilməsində böyük xidmətlərinə görə Türk Tarix Qurumunun müxbir üzvü seçilmişdir.

1986-cı ilin yanvarından 1988-ci ilin mayınadək Z.M.Bünyadov Azərbaycan SSRİ Şərqşünaslıq İnstitutunun Şərqin orta əsrlər tarixi şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1986-cı ildə Moskvada "Nauka" nəşriyyatı tərəfindən alimin "Xarəzmşahlar-Anuştəginlər dövləti 1097-1231-ci illər" adlı monoqrafiyası nəşr edilmişdir.

1988-ci ilin mayında Z.M.Bünyadov Aral dənizinin xilas etmə komitəsinin tərkibinə daxil edilmişdir. Həmin ildə Urgenc (Xarəzm) şəhərinin 340 illiyinin bayram edilməsi ilə əlaqədar olaraq şəhərin tarixi və ədəbiyyatının öyrənilməsi sahəsində xidmətlərinə və Aral dənizinin ekoloji probleminin həll edilməsinə böyük kömək göstərdiyinə görə Z.M.Bünyadova yeni təsis olunmuş "Urgenc şəhərinin fəxri vətəndaşı" adı verilmişdir.

Ziya Bünyadov 1988-ci ilin mayından 1990-cı ilədək Azərbaycan SSRİ EA Şərqşünaslıq İnstitutunun direktoru olmuşdur. 1988-ci ilin oktyabrında türk xalqları tarixinin öyrənilməsində xidmətlərinə görə Türk Tarix Qurumunun fəxri üzvü, 1990-cı ilin iyununda isə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir. 1992-ci ilin oktyabrından ömrünün sonuna qədər yenidən Şərqşünaslıq İnstitutuna rəhbərlik etmişdir.

Müxtəlif illərdə akademik çeşidli Şərq mənbələrinin şərhli tərcümələrini nəşr etdirmişdir: Mxitar Qoş. Alban salnaməsi. B., 1960; Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri. Ərəb dilindən şərhli tərcümə. M., "Nauka", 1971 (rus d.). 1992-ci ildə Azərbaycan dilində nəşr edilib; Şihabəddin Məhəmməd ən-Nəsəvi. Sirat əs-sultan Cəlal əd-Din Mankburnı. Ərəb dilindən şərhli tərcümə. Bakı, "Elm", 1973. Kitab 1996-cı ildə "Lukoyl" neft şirkətinin sponsorluğu ilə yenidən nəşr edilib; Sədrəddin Əli əl-Hüseyni. Əxbər əd-daulət əs-səlcukiyyə. Ərəb dilindən şərhli tərcümə. M., "Nauka", 1980; Əbu Məhəmməd Əhməd ibn Ə`səm əl-Kufi. Kitab əl-futuh. VII-XI əsrlər Azərbaycan tarixinə aid iqtibaslar. Ərəb dilindən şərhli tərcümə. Bakı, "Elm", 1981; Əbülqasim əz-Zəhravi. Cərrahiyyə və alətlər haqqında traktat. Ərəb dilindən şərhli tərcümə. M., "Nauka", 1982; Yaqut əl-Həməvi. Mü`cəm əl-buldan. Azərbaycan haqqında məlumatlar. Ərəb dilindən şərhli tərcümə. Həmdullah Qəzvini. Azərbaycan haqqında məlumatlar İngilis dilindən tərcümə. Bakı, "Elm", 1983; Abbasqulu Ağa Bakıxanov. "Gülüstani-İrəm". Müqəddimə, şərhlər və qeydlər. Bakı, "Elm", 1991.

Ziya müəllimin elmi axtarışları təkcə orta əsrlər dövrü ilə məhdudlaşmırdı. Alimi Vətənin yaxın keçmişi də maraqlandırırdı. O, əsrin əvvəlində Azərbaycanda baş verən hadisələr, ADR-in fəaliyyəti, Bakı kommunası və sair mövzulara bir sıra məqalələr həsr edib. 30-cu illərin repressiyaları isə alimin "Qırmızı terror" adlı kitabında (Bakı, 1993) işıqlandırılıb. Kitab bilavasitə çoxsaylı arxiv sənədləri əsasında yazılıb.



Ötən əsrin 90-cı illərin əvvəllərindən başlayaraq Ziya müəllimin elmi fəaliyyətinin bir istiqaməti də xalq tərəfindən islam dininin doğru-dürüst öyrənilməsinə yönəlmişdir. Alim professor V.Məmmədəliyevlə birgə müqəddəs "Qurani-Kərim"i dilimizə çevirir, ona şərhlər yazır. Sonra "Dinlər, təriqətlər, məzhəblər" adlı irihəcmli soraq kitabı hazırlayır. "İndi xalq öz dininə qayıdır, lakin dininə, imanına qayıtması üçün nə dərsliklər, nə elmi ədəbiyyat, nə soraq kitabçaları, nə də başqa vəsait vardır", - yazan müəllif yaranmış boşluğu bu kitabla aradan götürməyə çalışır. Kitab alimin vəfatından sonra 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində işıq üzü görmüşdür.

Alim 1990-cı ildə "Qurani-Kərim"in tərcüməsinə görə H.Z.Tağıyev adına mükafata, 1993-cü ildə A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin şərhli nəşrinə görə A.A.Bakıxanov adına mükafata layiq görülmüşdür.

Bir çox beynəlxalq elmi məclislərin iştirakçısı olan akademik Z.Bünyadov Azərbaycanın elmini ləyaqətlə təmsil edib. Türk Tarix Qurumunun VI-XII konqreslərində, Bağdadda tarixçilərin Beynəlxalq konqresində, Tokioda şərqşünasların XXXI Beynəlxalq konqresində, İranda Təbərinin 1100 illiyinə, Füzulinin 500 illiyinə həsr olunmuş beynəlxalq konfranslarda, Misirdə məşhur tarixçi əs-Süyutinin yubileyinə həsr olunmuş Beynəlxalq konfransda iştirak edərək sanballı məruzələrlə çıxış etmişdir.

İnstitut direktoru kimi Ziya müəllim böyük elmi-təşkilati iş aparırdı. O, Azərbaycan şərqşünaslıq elminin tərəqqisi, institutumuzun keçmiş İttifaqın digər şərqşünaslıq institutları və xarici ölkələrin şərqşünaslıq mərkəzləri ilə elmi əlaqələrinin möhkəmlənməsi və genişlənməsi üçün qüvvə və bacarığını əsirgəmirdi.

Akademik Z.M.Bünyadov Şərqşünaslıq İnstitutunun rəhbəri kimi Yaxın və Orta Şərq ölkələri probleminə həsr olunmuş bir sıra beynəlxalq və regional elmi konfransların təşkilatçısı olmuşdur: "Şərqşünasların II Ümumittifaq konfransı" (1983), "İslamın aktual problemləri" (1985, 1987, 1992), "Fars körfəzi problemi" (1988), "Zaqafqaziyanın gənc şərqşünaslarının I konfransı" (1989), "Atatürkün anadan olmasının 100 illiyinə həsr olunmuş Beynəlxalq konfrans" və s. O, ömrünün sonunadək "Vətən tarixi", "Ümumi tarix" və "Din tarixi və nəzəriyyəsi" ixtisasları üzrə birləşmiş müdafiə şurasına sədrlik etmişdir.

1992-ci ildə, Azərbaycanın ən çətin dövründə Z.M.Bünyadov özünün siyasi seçimini edir. Onu Yeni Azərbaycan partiyasına sədr müavini seçirlər.

1993-cü ildə "Astaranın fəxri vətəndaşı", 1994-cü ildə isə "Göyçayın fəxri vətəndaşı" adına layiq görülmüşdür.

12 noyabr 1995-ci ildə Z.M.Bünyadov Milli Məclisin deputatı seçilir.

Akademik Z.M.Bünyadovun Vətən qarşısında xidmətləri dövlət rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilmişdir: o, SSRİ-nin bir sıra orden və medalları, Oktyabr inqilabı ordeni ilə təltif edilmişdir. 1983-cü ildə ona elmin inkişaf etdirilməsində əldə etdiyi nailiyyətlərə görə SSRİ XTNS-in gümüş medalı, 1985-ci ildə isə faşist Almaniyası üzərində Böyük Vətən müharibəsinin 40 illik qələbəsi münasibətilə I dərəcəli Vətən Müharibəsi ordeni verilmişdir.

21 fevral 1997-ci ildə Sovet İttifaqı qəhrəmanı, Milli Məclisin deputatı, akademik Ziya Musa oğlu Bünyadovun həyatına faciəli şəkildə son qoyuldu. O, öz evinin astanasında vəhşicəsinə qətlə yetirildi.

Həmin mənfur gündən bizləri on bir ilə yaxın zaman kəsiyi ayırır. Bu vaxt ərzində Ziya müəllimin elmi irsi, həyatı və işıqlı şəxsiyyəti haqda bir çox fikirlər söylənilib, məqalələr yazılıb. Onların hamısının fövqündə, əlbəttə ki, akademik Z.M.Bünyadovla vida mərasimində Ulu Öndərimiz Heydər Əliyevin söylədiyi nitq durur: "Ermənistanın millətçi və separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə aid, o cümlədən Ermənistan-Azərbaycan tarixinə aid cürbəcür və tariximizi təhrif edən, saxtalaşdıran, Ermənistanda meydana çıxmış müxtəlif yazıların, məqalələrin əleyhinə ilk dəfə səsini qaldıran və onlara əsaslı, dəlilli və tarixi mənbələrə istinadla cavab verən, onların qarşısını alan alim Ziya Bünyadov idi.

O vaxtlar Sovet İttifaqı mətbuatında, Ermənistan mətbuatında, onların kitablarında, elmi yazılarında, Azərbaycan və Moskva mətbuatındakı məqalələrdə gedən mübahisələr çoxlarının yadındadır. Hər tərəfdən dəstə ilə alimlər, yaxud da alim adı daşıyan adamlar Azərbaycan tarixinə o vaxtlar təcavüz edirdilərsə, bir tərəfdən də Ziya Bünyadov öz iradəsi, biliyi, elmi əsərləri ilə onlara layiqli cavab verirdi və Azərbaycan tarixinin doğru-düzgün olduğunu dünyaya sübut edirdi və onu qoruyurdu.

Buna görə də erməni millətçiləri, erməni separatçıları və ümumiyyətlə, Azərbaycana mənfi münasibət göstərən xarici qüvvələr Ziya Bünyadovu özlərinə düşmən kimi qəbul edirdilər.

...Xatirimdədir, 60-cı illərin ikinci yarısında Azərbaycanın 150 il öncə Rusiyaya könüllü surətdə qəbul olunması haqqında elmi mübahisələr gedirdi. Məlumdur ki, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olmuşdur.

Amma Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikirlərini söyləyirdi. 1967-1968-ci illərdə Ziya Bünyadov bu barədə artıq bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olub. Amma bu, könüllü olmayıb. Odur ki, tarixi həqiqəti demək lazımdır.

O vaxtkı siyasi mühit, siyasi konyunktura bunu qəbul etmirdi. Ziya Bünyadov hətta buna görə günahlandırılırdı, onu hətta cəzalandırmaq istəyirdilər. Sonralar, əvvəlki bütün tarix araşdırıldıqdan sonra hamı bu fikrə gəldi ki, o vaxtlar Ziya Bünyadov doğru deyirdi. Həqiqət bunda idi. Həqiqəti Ziya Bünyadov deyirdi, öz yazılarında göstərirdi".

1998-ci ildə Ziya Bünyadov vəfatından sonra Azərbaycanın ən yüksək mükafatı - "İstiqlal" ordeninə layiq görülmüşdür.

Görkəmli alimin zəngin biliyi, geniş dünyagörüşü, hədsiz zəhmətsevərliyi və böyük tədqiqatçı istedadı onun qələminə məxsus hər bir əsərdə özünü büruzə verir.

Alimin saysız-hesabsız məqalələrindən hər biri, onun istər orta əsr yaşayış məntəqələrinin müəyyən edilməsinə və geneoloji cədvəllərin dəqiqləşdirilməsinə, istərsə də Azərbaycanın xilafət dövrü mərhələsinin və qonşu ölkələrlə əlaqələrinin öyrənilməsinə, və ya bütün orta əsrlər müsəlman dünyasının siyasi, sosial-iqtisadi və mədəni tarixinə həsr olunmuş hər bir tədqiqat əsəri və ya tibb, astronomiya, seysmologiya və s. sahələrə aid orta əsr qaynaqlarından əxz edilmiş məlumatların şərhinə, yeni məxəzlərin üzə çıxarılması və əldə olunmuş məlumatların elmi dövriyyəyə daxil edilməsinə yönəldilmiş tədqiqat işi gərgin axtarışların, tükənməz səbr və əməyin nəticəsidir. Bütün bunlar akademikin dərin düşüncə tərzinin, dəqiq və mükəmməl təhlil metodunun, incə və sərraf tədqiqatçı məharətinin göstəriciləridir.

Z.M.Bünyadov ixtisaslı şərqşünas kadrların hazırlanmasında da böyük xidmətlər göstərmişdir. O, Azərbaycanda mediyevist tarixçi ərəbşünaslar məktəbinin banisi və rəhbəri olmuşdur. O, İraq və Suriya Ərəb Respublikaları üçün yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynamışdır. 27 namizədlik işinin rəhbəri və məsləhətçisi, 12 doktorluq dissertasiyasının opponenti olmuşdur.

Prezidentimiz, Müzəffər Ali Baş Komandanın "Akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" 28 sentyabr 2023-cü il tarixli Sərəncamı elmi ictimaiyyətimiz tərəfindən böyük hadisə kimi qiymətləndirilir. Sərəncamla AMEA-ya görkəmli alimin yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək həvalə olunub. Bu baxımdan Şərqşünaslıq İnstitutu alimin xatirəsinə həsr olunmuş Beynəlxalq konfransın keçirilməsi üçün hazırlıq işlərinə artıq başlamışdır. Düşünürəm ki, tədbirlər planına eyni zamanda Ziya Bünyadovun əsərlərinin Azərbaycan dilində tam külliyyatının nəşri də daxil edilməlidir. Bütövlükdə cənab Prezidentin imzaladığı Sərəncam ölkəmizdə elmə və alimə verilən çox yüksək dəyər olaraq tarix və şərqşünaslıq elmimizin tədqiqində yeni üfüqlər açacaq, neçə-neçə tədqiqatçılara yeni imkanlar yaradacaq.

Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam məhz onun ömür boyu uğrunda yorulmadan gərgin mübarizə apardığı amalın - Vətənin ərazi bütövlüyünün tam bərpa olunduğu günlərdə verildi. Bütün bunlara görə AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi adından Prezidentimiz, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevə dərin təşəkkürümü bildirir, Vətənin bütövlüyü və çiçəklənməsi naminə gərgin fəaliyyətdə yeni-yeni uğurlar arzulayıram.

**Gövhər BAXŞƏLİYEVA**
**AMEA Rəyasət Heyətinin üzvü v.i.e.,**
**Z.M.Bünyadov adına**
**Şərqşünaslıq İnstitutunun**
**baş direktoru, akademik**

# Akademik İradə Hüseynova İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun Laçın şəhərində keçirilmiş iclasında iştirak edib



**AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Laçın şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun iclasında iştirak edib.**

İclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının (o cümlədən, AMEA-nın) nümayəndələri, İdarələrarası Mərkəzin və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Publik Hüquqi Şəxsin nümayəndələri iştirak ediblər.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumlar tərəfindən Laçın şəhərində aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri, Qarabağda kəhrizlərin bərpası və su ehtiyatlarının idarə olunmasında onlardan istifadə perspektivləri (bu mövzu ilə bağlı AMEA-nın müxbir üzvü Pənah Muradov məruzə ilə çıxış edib), işğaldan azad edilmiş ərazilərdə aparılan kosmik tədqiqatlar, tikinti-söküntü tullantılarından təkrar xammal materialı kimi istifadə perspektivləri, yol-infrastruktur layihələrinin icrası zamanı ətraf mühitə minimum təsirə nail olunması, Laçın şəhərində yaşıllıqların mühafizəsi və bərpası perspektivləri, yol tikintisi işlərində tələb olunan xammal təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən tikinti-quruculuq işləri ilə bağlı daxil olan müraciətlər, faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, müasir texnologiyalardan istifadə olunması, işğaldan azad edilmiş ərazilərin, o cümlədən Laçın rayonunun çayları və onların hidroenerji potensialından istifadəsi, eləcə də istismara verilmiş və icrası davam edən kiçik su elektrik stansiyaları barədə məlumat verilib və Laçın şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib.

İclasdan sonra iştirakçılar Zerti Aqro-sənaye Parkının işi ilə tanış olublar.

# AMEA əməkdaşları Azərbaycan Qadınlarının VI Qurultayında

**Oktyabrın 19-da Bakıda Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib.**

Qurultay ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda müstəqil Azərbaycanın ilk Qadın Qurultayının 25 ili münasibətilə təşkil edilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Qurultay iştirakçılarına təbrik məktubunu oxuyub.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, AMEA-nın vitse-prezidenti v.i.e., akademik Gövhər Baxşəliyeva, AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdiri, tarix elmləri doktoru Zemfira Hacıyeva, AMEA-nın Qadınlar Şurası sədri, professor Rəna Mirzəzadə və sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Mahrux Nəcəfli də iştirak ediblər.




AMEA-nın qadın alimləri adından çıxış edən professor Rəna Mirzəzadə Azərbaycanda idarəetmədə qadınların önə çəkilməsi və gender siyasətinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin rolu, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın Azərbaycan elminin inkişafında yorulmaz fəaliyyəti, Prezident İlham Əliyevin gender siyasəti və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın cəmiyyətdə qadınların rolunun gücləndirilməsi istiqamətindəki xidmətləri ilə bağlı fikirlərini bölüşüb.

# Elmin gücünə əsaslanan cəmiyyət daim inkişaf edir



**AMEA-nın Naxçıvan Bölməsində Əlyazmalar Fondunun təşkilatçılığı ilə "Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu" mövzusunda elmi konfrans keçirilib.**

Tədbiri Bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq konfransın AMEA Rəyasət Heyətinin Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 100 illik yubileyi ilə əlaqədar təsdiq etdiyi Tədbirlər planına əsasən keçirildiyini bildirib.

"Elmin gücünə əsaslanan cəmiyyət daim inkişaf edir", - deyən bölmə sədri Tədqiq və Tətəbbö Cəmiyyətinə rəhbərlik etmiş elm adamları, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti ilə bağlı araşdırma aparmış alimlər və dərc olunmuş əsərlər barədə məlumat verib.

Konfransda AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov, Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev məruzələrlə çıxış ediblər.

Məruzələrdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təsis edilməsi, məhsuldar və məzmunlu fəaliyyəti, üzvləri, nəşr etdirdiyi əsərlər barədə məlumat verilib. Qeyd olunub ki, Nizamnaməsində Azərbaycanı, onun dilini, tarixini, folklorunu, adət-ənənələrini, məişətini, etnoqrafiyasını, milli psixologiya və xalq fəlsəfəsinin öyrənilməsi kimi mühüm məqsədlərin yer aldığı qurum fəaliyyəti dövründə əhəmiyyətli işlər görmüşdür. Dövrün tanınmış elm adamları, tədqiqatçıları ilə əməkdaşlıq edən Cəmiyyət sələfi olduğu elmi-tədqiqat müəssisələri üçün möhkəm bünövrə formalaşdırmışdır.

Məruzələrdə, həmçinin Naxçıvanda fəaliyyət göstərən Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti, strukturu, günümüzədək gəlib çatmış arxiv sənədləri, habelə bölgənin tədqiqi və xalqın maarifləndirilməsi məqsədilə görülən işlərdən söz açılıb. Cəmiyyətə sədrlik etmiş Mirzə Vahab Həsənzadənin keşməkeşli həyatı və elmi fəaliyyətinin geniş şərh olunduğu məruzələrdə milliliyə xidmət etmiş Cəmiyyət üzvlərinin araşdırmaları, topladıqları və nəşr etdirdikləri əsərlər barədə də ümumiləşdirici məlumat verilib.

Sonda məruzəçilərin toxunduğu bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

# İraq Strateji Araşdırmalar Mərkəzi ilə elmi əməkdaşlıq

**İraq Respublikasının Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, İraq - Azərbaycan Dostluq Cəmiyyətinin sədri, İraqda nəşr olunan "Sadaka" qəzetinin baş redaktoru doktor Mutaz Muhi Əbdülhəmid AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olub.**



İraqlı qonaq ilk olaraq AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşüb. Görüşdə Şərqşünaslıq İnstitutu ilə İraq Respublikasının Strateji Araşdırmalar Mərkəzi arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsi qeyd edilib və bu sahədə atılacaq növbəti addımlarla bağlı söhbət aparılıb.

Sonra doktor Mutaz Muhi Əbdülhəmid Şərqşünaslıq İnstitutunun kollektivi ilə görüşüb. Akademik Gövhər Baxşəliyeva Şərqşünaslıq İnstitutu ilə İraq Respublikasının Strateji Araşdırmalar Mərkəzi arasında sıx əməkdaşlığın həyata keçirildiyini və doktor Mutaz Muhi Əbdülhəmidin Azərbaycan - İraq elmi əlaqələrinin inkişafına böyük töhfələr verdiyini bildirib. Bu il avqustun 30-da İraq Respublikasının Strateji Araşdırmalar Mərkəzinin və İraq - Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə İraqda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və müasir ərəb İslam Şərqi" adlı beynəlxalq konfransın keçirildiyini xatırladan akademik Gövhər Baxşəliyeva, həmin konfransda məruzə edən azərbaycanlı nümayəndələr sırasında Şərqşünaslıq İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü və Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Gülər Qafqazlının da olduğunu qeyd edib.

Doktor Mutaz Muhi Əbdülhəmid konfransa bir sıra ərəb ölkələrindən və Azərbaycandan 40-dan çox alimin qatıldığını deyərək, azərbaycanlı alimlərin iştirakından məmnunluğunu bildirib.

Tədbirdə İraqda keçirilmiş "Heydər Əliyev və müasir ərəb İslam Şərqi" adlı beynəlxalq konfransda məruzə etmiş Şərqşünaslıq İnstitutunun əməkdaşlarına və Azərbaycanın digər elmi və ictimai təşkilatlarından olan məruzəçilərə sertifikatlar təqdim edilib.

# İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının iclası

**Oktyabrın 20-də AMEA-da İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının birinci iclası keçirilib.**

Tədbiri Əlaqələndirmə Şurasının sədri, akademik Teymur Kərimli açaraq gündəlikdə qoyulan məsələlər haqqında iclas iştirakçılarına məlumat verib.

Əvvəlcə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Dialektologiya şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru dosent Kübra Quliyevanın "İraq-Türkman ləhcəsinin tarixi-dialektoloji təsviri" mövzusunda məruzəsi dinlənilib.

Dilçi alim bildirib ki, İraq-Türkman ləhcəsinin lüğət tərkibi çox zəngindir. Bu zənginlik sadəcə İraq-Türkman ləhcəsini meydana gətirən şivələrin deyil, həm də əsrlər boyu ətrafında yaşayıb inkişaf etdiyi ərəb və fars dillərinin, eləcə də,



tarixin müəyyən dövrlərində Azərbaycan, Türkiyə və digər türkdilli xalqlar ilə vahid dövlət halında olduğu, yaxud da onlarla əlaqələrin genişlənməsi dövrlərində dilə aid olan minlərlə yeni sözün hesabınadır.

Sonra məruzə iclas iştirakçılarının geniş müzakirəsinə təqdim edilib. İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının sədr müavini, filologiya elmləri doktoru professor Qəzənfər Paşayev, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətli, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun Türk xalqlarının etnoqrafiyası şöbəsinin müdiri, tarix elmləri doktoru Güllü Yoloğlu, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Dialektologiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Kifayət İmanquliyeva və həmin institutun Toponimika şöbəsinin müdiri Elçin İsmayılov və b. öz fikirlərini səsləndiriblər.

Daha sonra Əlaqələndirmə Şurasının sədri, akademik Teymur Kərimli Humanitar və İctimai Elmlər bölmələrinin elmi tədqiqat müəssisələrinin təklifləri nəzərə alınmaqla İraq Respublikasında yaşayan türkmanlarla tarixi, mədəni və humanitar sahələrdə əlaqələrin genişləndirilməsinə dair Azərbaycan Milli Elmlər Akademiyasının Tədbirlər planının layihəsini iclas iştirakçılarının nəzərinə çatdırıb. 2 hissədən - "Tədbirlər" və "Nəşrlər" blokundan ibarət olub 2023-2026-cı illəri əhatə edən Tədbirlər planına dair alimlərin rəyləri nəzərə alınıb, təklifləri əlavə edilib.

AMEA-da İraq-Türkman tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, etnoqrafiyası və folkloru ilə bağlı araşdırmaların aparılmasının humanitar və ictimai elmlərin prioritet istiqamətlərindən biri olduğu vurğulanıb.

İclasın sonunda filologiya elmləri doktoru, professor Elman Quliyev və filologiya üzrə fəlsəfə doktoru Kübra Quliyevanın İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının üzvlüyünə daxil edilməsi barədə müvafiq qərar qəbul edilib.

# Şərəfli alim ömrünün səhifələri

**Məlumdur ki, bioloji müxtəliflik Yer kürəsində canlı həyatın davamının əsası və başlıca təminatçısıdır. Təbii-iqlim şəraitinin, geoloji-relyef quruluşunun rəngarəngliyi və mürəkkəbliyi ilə əlaqədar Azərbaycan əraziləri biomüxtəlifliyin zənginliyinə görə bütün dünyada seçilir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, ölkəmiz bir sıra flora və fauna növlərinin ilkin əmələgəlmə, bəzi kənd təsərrüfatı bitki və heyvanlarının mədəniləşdirmə və əhilləşdirmə mərkəzlərindəndir.**



Bu və ya digər stress amillərinin məcmusu, əsasən də insanın təbiətə istismarçı münasibəti, o cümlədən antropogen landşaftların genişlənməsi, qlobal iqlim dəyişikliklərinin intensivləşməsi nəticəsində azalmaq və itmək təhlükəsi ilə üzləşən bu qiymətli müxtəlifliyin tədqiqi, daimi monitorinqi, mühafizəsi və səmərəli istifadəsi həyati əhəmiyyət daşımaqla həlli olduqca vacib olan problemdir.

80 yaşı bu yaxınlarda tamam olmuş Azərbaycanın tanınmış botanik alimi, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Vaqif Seyfəddin oğlu Novruzovun uğurlu elmi və pedaqoji fəaliyyəti məhz bu mühüm problemin araşdırılmasına, müvafiq sahələrdə milli kadr hazırlığına həsr edilmişdir.

Vaqif Novruzovun ömür yoluna nəzər salsaq, təhsili, ixtisası və iş həyatı ilə bağlı etdiyi seçimlərin heç də təsadüfi olmadığının şahidi olarıq.

Azərbaycanın meşəətrafı yaşayış məntəqələrində qədimdən belə bir adət vardır: öz işinin ustası olan həvəskar bağbanlar cır ağaclara calaq vurur, meşə kənarlarında və talalarda ağaclar əkir, kəndləri əhatə edən meşəətrafı zonaları bərəkətli meyvə bağlarına çevirir, onları genişləndirir və qoruyurlar. Canlı təbiətlə, bitkilər aləmi ilə sıx təmasda böyüyən kənd uşaqlarının belə ərazilərdə qeyd olunan proseslərdə iştirak etmələri onların həyat yolu və ixtisas seçimində də öz təsirini göstərir, ən azından gənclərdə özünəməxsus təbiətsevərlik ruhu formalaşır.

Bu baxımdan, 1943-cü ildə Quba rayonunun 4 tərəfdən meşə və meyvə bağları ilə əhatə olunmuş Rustov kəndinin Baxça Əli məntəqəsində Seyfəddin müəllimin ailəsində dünyaya göz açmış Vaqif Novruzovun da gələcək həyat yoluna və elmi karyerasına məhz böyüdüyü mühit, səfalı meşələr, atasının müxtəlif üsullarla calaq vurduğu meyvə ağacları, bu bitkilərin dərsliklərdən tanış olduğu və bağlarda canlı olaraq rastlaşdığı təbii inkişaf xüsusiyyətləri və bu kimi digər bilgilər əhəmiyyətli dərəcədə təsir etmişdir. Gənc Vaqifin evləri ilə təhsil aldığı orta məktəb arasındakı məsafə 5 km-dən çox idi. Kənd uşaqlarının yazda və yayda gilas, ərik, şaftalı, payızda qoz, yemişan, qışda isə donmuş şirin əzgil yeyə-yeyə məktəbə getdikləri bu yolun uzaqlığı gözlərinə görünmürdü. Onlar dərsdən kənar vaxtlarda valideynlərinə kömək edir, meşədən meyvə yığır, talalarda ot çalır, kolxozun taxıl biçinində iştirak edirdilər. Beləcə, məktəbli Vaqif zaman keçdikcə təbiətə, torpağa, bioloji müxtəlifliyə daha çox bağlanırdı.

Çox savadlı və ciddi təbiətli müəllimləri var idi. Xüsusilə, coğrafiya müəllimi olan atası ensiklopedik biliklərə və dərin zəkaya malik olması ilə seçilirdi. Biologiyanı tədris edən Baba müəllimin dərsləri ətraf mühitlə təmasda, təcrübələrlə keçir və çox maraqlı olmaqla şagirdlərin dünyagörüşündə, canlı aləmə baxışlarında silinməz izlər buraxırdı.

Təbiətə olan həvəsi bütün çətinliklərə baxmayaraq, orta məktəbi gümüş medalla bitirmiş Vaqif Novruzovu Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) Təbiət fakültəsinə gətirir. Universitetdə professor Həmid Fərzəlibəyli, Dövlət mükafatı laureatı, professor Mirzə Sadıqov, professorlar Məhəbbət Nəcəfov və Qabil Seyidov, fakültə dekanı Kamal Quliyev kimi müəllimlər Vaqifin savadlı bir mütəxəssis kimi yetişməsində böyük rol oynayır. Müəllimlərin tələbkarlığı və verdikləri biliklərlə yanaşı, özünün də istedadı, məqsədyönlü xarakteri və çalışqanlığı sayəsində Vaqif Novruzov universiteti Lenin təqaüdü ilə bitirir, daha sonra Xaçmaz rayonuna təyinat alaraq, 1966-cı ildə burada müəllim kimi əmək fəaliyyətinə başlayır.

Elmi tədqiqatlara olan böyük marağı Vaqif müəllimi 1966-cı ilin dekabr ayında Azərbaycan SSR EA Botanika İnstitutunun İbtidai bitkilərin sistematikası şöbəsinin aspiranturasına gətirir. Vaqif Novruzov aspiranturanı bitirdikdən sonra Botanika İnstitutunda 1981-ci ilə kimi kiçik elmi işçi və baş elmi işçi vəzifələrində çalışır.

O dövrlər Botanika İnstitutu akademik Müzəffər Abutalıbovun rəhbərliyi ilə Qafqaz regionunda tanınmış elm mərkəzlərindən biri idi. O zamanlar bu institutda akademiklər M.Abutalıbov və V.Ulyanişev, AMEA-nın müxbir üzvləri İ.Səfərov, N.Qarayeva, S.Musayev, O.İbadov, professorlardan Ş.Barxalov, Y.İsayev, Q.Axundov, Z.Əzizbəyova, M.Mikayılov, N.Mehdizadə, T.Axundov, Z.Novruzova, Ə.Xəlilov kimi tanınmış alimlər çalışırdılar. Onların institutun seminarlarında hər bir çıxışı gənc mütəxəssislərin elmə olan maraqlarını və yeni biliklərə çıxış imkanlarını daha da artırırdı. Qeyd etmək lazımdır ki, Vaqif Novruzovun elmi fəaliyyətində akademik Vahid Hacıyevin xüsusi rolu olmuşdur. İnstitutda Vahid müəllimin rəhbərliyi və iştirakı ilə ölkənin müxtəlif regionlarında aylarla elmi ekspedisiya tədqiqatları aparılırdı və Vaqif müəllim də bu tədqiqatlarda müntəzəm şəkildə iştirak edirdi.

Vaqif Novruzovun alim kimi formalaşmasında elmi rəhbəri professor Ş.Barxalov, Sankt-Peterburq Botanika İnstitutunun professoru P.L.Saviç, professor N.S.Qolubkova, Ukrayna EA Botanika İnstitutunun direktoru, professor A.N.Oksner, Estoniya Tartu Universitetinin kafedra müdiri, akademik X.X.Tras böyük xidmətlər göstərmişdir. Vaqif müəllim elm üçün təsvir etdiyi yeni növlərə (Microphiale barchalovii Novruzov, Lecania saviczii Novruzov, Licanora oxneri Novruzov) Ş.Barxalovun, lixenologiya elminin banilərindən olan P.L.Saviç və A.N.Oksnerin adlarını verməsi alimin elm yoluna işıq saçmış insanlara minnətdarlığının göstəricisidir. Qeyd edilən növlər dünya botaniklərı tərəfindən qəbul olunmuş, təyinedicilərə daxil edilmişdir.

Vaqif Novruzov çoxillik tədqiqatlarını ümumiləşdirərək, 1970-ci ildə "Quba-Qusar rayonlarınının epifit şibyələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

Vaqif müəllimin həyatında ən çətin vaxtlardan biri doktorluq dissertasiyası üzərində işlədiyi dövr olmuşdur. Ailəli olması, yataqxana həyatı, aspirantura qayğıları, uzunmüddətli elmi ekspedisiyalar, ümumittifaq konfranslarda iştirak çoxsaylı problemlər yaradırdı. O çətin günlərdə başda AMEA-nın hazırkı prezidenti, akademik İsa Həbibbəyli olmaqla, aspirant yoldaşları Vaqif müəllimin yanında olmuş, ona böyük dəstək vermişdilər.

Vaqif Novruzov Arktika, Ural, Xibin, Tyanşan, Kopetdaq, Xabarovsk və Qafqazda keçirilən ekspedisiyalarda akademik X.X.Trasla birgə iştirak etmişdir. O, 1972-ci ildə doktorluq dissertasiyasının rəsmi opponenti akademik X.X.Tras idi. Onun iradlarına cavab vermək isə heç də asan deyildi. Verilən rəydə Lecanora nemoralis növünün yalnız Ukraynanın Karpat dağlarında rast gəlindiyi və bu növün Quba rayonunda, Vəlvələçayın Yan silsiləsini kəsdiyi yerin yaxınlığında, Təngə ərazisində mövcudluğunun qeyri-mümkün olması göstərilirdi. Müdafiə vaxtı X.X.Tras yalnız növü gördükdən sonra dissertanta elmi dərəcənin verilməsinə razı ola biləcəyini demişdi. İclasın sonunda müdafiə şurasının sədri, görkəmli alim, akademik Cəlal Əliyev doktorantı dəstəkləyir və onun tövsiyəsi ilə Vaqif müəllim, X.X.Tras və digər rəsmi opponent - Ukrayna Dövlət Universitetinin professoru, Dövlət mükafatı laureatı İ.A.Dudka növün yayıldığı güman olunan əraziyə gedirlər və dağdakı çox çətin keçilən bir yerdə, ilanlar və müxtəlif vəhşi heyvanların məskunlaşdığı yarğanlıqda növə rast gəlirlər.

Lecanora nemoralis və L.multispora növləri sonralar da problem yaratmışdı. Ukraynanın görkəmli lixenoloqlarından biri olan professor M.F.Makareviç bildirmişdi ki, Azərbaycanda həmin növləri kustar üsullarla təyin etmək doğru deyildir. Bu fikrə əsaslanan ukraynalı professor Vaqif müəllimin dissertasiyasına mənfi rəy vermişdi. Vaqif Novruzov haqlı olduğunu sübuta yetirmək üçün Kiyevə getmişdi. Sonralar "SSRİ şibyələrinin təyini" kitabında (Leninqrad, 1971) M.F.Makareviç tərəfindən həmin növlərin Azərbaycanda yayıldığı göstərilmişdir.

Nəhayət, bütün çətinliklər arxada qalır və Vaqif Novruzov 1985-ci ildə "Böyük Qafqazın lixenoflorasinin analizi və mühafizəsi" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edir. Elmin dolanbac yollarında addımaddım irəliləyən Vaqif Novruzovun keçmiş SSRİ-nin Ali Attestasiya Komissiyası tərəfindən 1978-ci ildə baş elmi işçi, 1986-cı ildə dosent, 1988-ci ildə professor elmi adlarını alması onun tədqiqatlarına və əldə etdiyi nəticələrə verilən yüksək qiymət hesab edilə bilər.

Akademik Validə Tutayukun vəfatı ilə əlaqədar Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun (ADKTİ - indiki Azərbaycan Dövlət Aqrar Universiteti) kadr təminatında yaranmış problemin həlli məqsədilə Vaqif Novruzov Azərbaycan SSR EA tərəfindən 1982-ci ildə ADKTİ-yə göndərilir. Alim burada uzun illər dosent, professor, elmi işlər üzrə prorektor və rektor əvəzi vəzifələrində işləyir. Bu müddətdə onun rəhbərliyi ilə 1 elmlər doktoru və 3 fəlsəfə doktoru hazırlanır.

Vaqif Novruzov 2003-cü ildən Gəncə Dövlət Universitetində Botanika kafedrasının müdiri, professor vəzifələrində çalışmışdır. Alim ötən dövr ərzində həmin kafedra üçün yüksəkixtisaslı kadr hazırlığında yaxından iştirak etmişdir.

Botanika elmində və kadr hazırlığında əldə etdiyi mühüm nailiyyətlər nəzərə alınaraq, professor Vaqif Novruzov 2017-ci ildə "Botanika" ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilmişdir.

Bitki örtüyünün ümumi problemlərinin həllinə yönəldilmiş floristik-sistematik tədqiqatlar alimin elmi axtarışlarının əsas istiqamətini təşkil edir. O, Böyük və Kiçik Qafqaz, Naxçıvan MR-nın şibyə florasını öyrənmiş, həmçinin çoxsaylı elmi ekspedisiyaların materialları əsasında Qafqaz şibyələrində növəmələgəlmə prosesini, floranın genezisi və formalaşması yollarını elmi dəlillərlə daha da dəqiqləşdirmiş, elmə məlum olmayan 15 növün ilk dəfə botaniki təsvirini verərək, onları dünya florasına daxil etmişdir. Həmin növlər beynəlxalq səviyyədə botaniklər tərəfindən qəbul edilərək, monoqrafik məcmuələrə və təyinedicilərə daxil olunmuşdur.

Alim, həmçinin keçmiş SSRİ (5 növ), Qafqaz (98 növ) və Azərbaycan florası (300-dən çox) üçün yeni növlər müəyyənləşdirmişdir. Onun tərəfindən Qafqazda ilk dəfə olaraq, nadir və məhvolma təhlükəsində qalan şibyələrin mühafizəsi üçün tədbirlər sistemi işlənib hazırlanmışdır.

Vaqif Novruzov şibyə turşularının yüksək antibiotik spektrə və bakteriostatik təsirə, patogen mikroorqanizmlərə qarşı seçicilik qabiliyyətinə malik olmasını nəzərə alaraq, Azərbaycan şibyələrinin tibbi praktikada istifadə olunma imkanlarını aydınlaşdırmaq məqsədilə Rusiya Elmi-Tədqiqat Dərman Bitkiləri İnstitutu, İ.M.Seçenov adına Moskva I Tibb İnstitutu ilə birlikdə geniş həcmli araşdırmalar aparmış, respublikanın müxtəlif təbii-coğrafi zonalarından toplanmış 300-ə qədər növün analizi ilə onlardan yeni tibbi preparatların alınmasına imkan verən keyfiyyətli ksanton, antroxinon, emodin, xloremodinin ayrılmasına nail olmuşdur. Həmin tədqiqatların nəticələri öz əksini bir sıra nüfuzlu elmi jurnallarda tapmışdır. 90-cı illərdən başlayaraq Vaqif Novruzov tərəfindən Azərbaycanda tibbi-bioloji perspektivi olan növlərin ehtiyatı hesablanmış və yayılma arealları dəqiqləşdirilmişdir.

Şibyələrdən alınan və dünya ətriyyat-kosmetika bazarında "Muss-de-Şen" adı ilə məlum olan rezinoid və esensiyaları müasir ətriyyat sənayesində heç bir digər təbii və sintetik maddə ilə əvəz etmək mümkün deyildir. Bu maddələr ətriyyat məhsullarının tərkibində aromatik keyfiyyəti tənzim etmək üçün mühüm komponentlərdir. Vaqif müəllim problemin vacibliyini nəzərə alaraq, Azərbaycan şibyələrinin qeyd edilən istiqamətdə istifadə olunma imkanlarını öyrənmişdir. Uzun müddət qış və yay otlaqlarının pasportlaşdırılmasında iştirak etmiş Vaqif Novruzov torpaq tipləri və bitki assosiasiyalarının ilin fəsillərindən asılı olmayaraq təyini üçün yeni lixenoindikasiya metodu işləyib hazırlamışdır.

Hazırda dünyanın bir çox ölkələrində monitorinqlər aparılmaqla çirklendiricilərin yerüstü biotaya təsir mexanizmləri tədqiq edilir. Epifit şibyələr antropogen anomaliyalara həssas orqanizmlər olub, bioloji monitor kimi çoxdan test obyektlər sırasına daxil edilmiş, onların bu istiqamətdə istifadəsi bir çox beynəlxalq bioloji proqramların məcburi surətdə yerinə yetirilməsi tələb olunan öhdəliklərindən birinə çevrilmişdir. Ona görə də Vaqif Novruzov tərəfindən Rusiya EA Hidrometeorologiya və Təbii Mühitə Nəzarət Dövlət Komitəsinin əməkdaşları ilə birlikdə (akademik Y.A.İzrael, elmlər doktorları S.M.Semenov, Q.İnsarov) qoruqların epifit şibyələri və ətraf aqroekosistemlərdə antropogen təsirin dinamikasının öyrənilməsi istiqamətində aparılmış tədqiqatlar böyük əhəmiyyət daşımışdır.

AMEA-nın müxbir üzvü Vaqif Novruzov 45 il ərzində Arktikadan tutmuş, Orta Asiya səhralarına qədər, Mərkəzi Avropa və Asiya meşələrinə, Ural, Xibin, Mərkəzi Kopetdağ, Tyanşan, Karpat, Pamir, Alp və Qafqaz dağ sistemlərinə təşkil olunmuş elmi ekspedisiyalarda iştirak edərək, bitki örtüyünün yayılma qanunauyğunluqlarına və növəmələgəlmə proseslərinə dair qiymətli elmi dəlillər əldə etmişdir. Elmi ekspedisiyalarda toplanmış herbari materialları Rusiya EA Botanika İnstitutunun (Sankt-Peterburq), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, AR ETN Botanika İnstitutunun, Gəncə Dövlət Universitetinin herbari fondlarını zənginləşdirmişdir. Onun qeyd edilən tədqiqatlarının nəticələri Azərbaycan və xarici ölkə alimlərinin əsərlərində, o cümlədən "Opredeliteľ lişaynikov SSSR i Rossii" (1-7-ci cildlər, 1971-2008) çoxcildliyində geniş şərh edilmişdir.

Prezident İlham Əliyevin 24 mart 2006-cı il tarixli 1368 №-li Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"na müvafiq olaraq, Vaqif Novruzovun rəhbərliyi ilə Gəncə Dövlət Universitetinin Botanika kafedrasında professor-müəllim heyəti tərəfindən "Azərbaycanın Qərb bölgəsinin bitki örtüyünün bioloji müxtəlifliyi və genefondun mühafizəsi" problemi üzrə elmi tədqiqatlar aparılmış, bir sıra mühüm nəticələr əldə edilmişdir.

Bir alim-tədqiqatçı kimi məhsuldarlığı ilə seçilən Vaqif Novruzov botanikanın praktiki, metodiki və nəzəri problemlərinə həsr olunmuş 250 elmi əsərin, o cümlədən 7 monoqrafiya, 3 dərslik, 7 dərs vəsaiti, metodiki göstəriş və problem mühazirələrinin müəllifidir. Vaqif müəllim 30-dan çox beynəlxalq və regional elmi konfrans, simpozium, qurultay və konqreslərin iştirakçısı olmuşdur.

AMEA-nın müxbir üzvü Vaqif Novruzov bioloji müxtəlifliyin öyrənilməsi və genefondun mühafizəsi üzrə elmi araşdırmalarını bu gün də davam etdirir. O, Azərbaycan Respublikası "Qırmızı kitab"ının II və III nəşrlərinin redaksiya heyətinin üzvü və müəlliflərindəndir. Alim uzun müddət keçmiş Sovetlər İttifaqının "Qırmızı kitab"ının kuratoru olmuşdur. Burada qeyd etməyi vacib bilirəm ki, Azərbaycan Respublikası "Qırmızı kitab"ının bu yaxınlarda işıq üzü görmüş 2 cildlik III nəşri ciddi elmi əsər olmaqla Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmişdir və ölkədə itmək təhlükəsində olan flora və fauna növlərinin mühafizəsi istiqamətində atılmış əhəmiyyətli addımdır.

Vaqif Novruzov AMEA-nın və AMEA Biologiya və Tibb Elmləri Bölməsinin tədbirlərində hər zaman yaxından iştirak etmiş, gənc tədqiqatçılardan dəstəyini heç zaman əsirgəməmişdir. Tanınmış alimin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 23 fəlsəfə doktoru və 3 elmlər doktoru hazırlanmışdır. Həmin alimlərin sırasında bu gün respublikanın universitetlərində, elm mərkəzlərində böyük uğurla fəaliyyət göstərməklə öz müəllimlərinə də başucalığı gətirən elmlər doktorları, professorlar, AMEA-nın müxbir üzvləri vardır. Bunlardan uzun illər Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru vəzifəsində çalışmış, hazırda AR KTN Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru AMEA-nın müxbir üzvü İbrahim Cəfərovun adını çəkmək olar.

AMEA-nın müxbir üzvü Vaqif Novruzov 10 ildən artıq Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Biologiya və kənd təsərrüfatı elmləri üzrə Ekspert şurasının, Azərbaycan Respublikasının Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının biologiya üzrə problem şuralarının və şuranın botanika seksiyasının üzvü olmuşdur.

Alim hazırda AR ETN Gəncə Bölməsinin "Xəbərlər", Gəncə Dövlət Universitetinin "Xəbərlər" jurnallarının redaksiya heyətinin, AR ETN Botanika İnstitutu Dissertasiya Şurasının üzvü, Azərbaycan Botaniklər Cəmiyyətinin vitse-prezidentidir.

AMEA-nın müxbir üzvü Vaqif Novruzovun elmi və pedaqoji fəaliyyəti dövlət və xalq tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 sentyabr tarixli Sərəncamı ilə tanınmış alimə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı verilmişdir. Onun adı "Azərbaycanın 100 görkəmli alimi" ensiklopedik nəşrinə daxil edilmiş (2001), alim "Gəncə Dövlət Universitetinin inkişafında xüsusi xidmətlərinə görə" medalı ilə (2009), AMEA Rəyasət Heyətinin, Botanika İnstitutunun, ADAU və GDU-nun fəxri fərmanları ilə təltif olunmuşdur.

İnanıram ki, AMEA-nın müxbir üzvü Vaqif Novruzov həm alim, həm də müəllim kimi bundan sonra da elmimizə və elmi kadr hazırlığına dəyərli töhfələr verəcəkdir.

**İradə HÜSEYNOVA,**
**AMEA-nın vitse-prezidenti, akademik**

# "İlham Əliyevin Gəncə şəhərinə səfərləri" kitabının təqdimatı

**AMEA-nın Gəncə Bölməsi cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidenti seçilməsinin 20-ci ildönümü ilə bağlı əlamətdar tarixə həsr olunmuş yeni kitab nəşr edib.**

"İlham Əliyevin Gəncə şəhərinə səfərləri" adlı monoqrafiya Bölmənin Rəyasət Heyətinin qərarı ilə çap olunub.

Layihə rəhbəri AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev olan, "Elm" nəşriyyatında işıq üzü görən 586 səhifəlik kitab Bölmənin əməkdaşlarının birgə əməyi ilə ərsəyə gətirilib.

Gəncə şəhər İcra Hakimiyyəti və AMEA Gəncə Bölməsinin birgə təşəbbüs və təşkilatçılığı ilə "İlham Əliyevin Gəncə şəhərinə səfərləri" monoqrafiyası şəhər ictimaiyyətinə təqdim edilib. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında keçirilən təqdimetmə mərasimində şəhər rəhbəri Niyazi Bayramov və Türkiyə Respublikasının Gəncədəki Baş konsulu Rəcəb Öztop da iştirak ediblər. Toplantıya şəhər İcra hakimiyyətinin, AMEA Gəncə Bölməsinin, Gəncənin elm və təhsil müəssisələrinin, mədəniyyət ocaqlarının, dövlət və ictimai təşkilatlarının rəhbərləri və nümayəndələri, ziyalılar və gənclər qatılıblar.





"İlham Əliyevin Gəncə şəhərinə səfərləri" kitabının nüsxələri filarmoniyanın foyesində sərgilənib.

Tədbirin başlanğıcında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən torpalarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında cənab İlham Əliyevin Respublika Prezidenti seçilməsindən keçən 20 il ərzində ölkəmizin, o cümlədən Gəncə şəhərinin sosial-iqtisadi və humanitar-mədəni həyatında baş verən yüksəlişdən danışıb. O, qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin strateji xəttinin layiqli davamçısı, cənab Prezident İlham Əliyevin Azərbaycanın iqtisadi və hərbi cəhətdən qüdrətli ölkəyə, beynəlxalq arenada nüfuzlu söz sahibinə çevrilməsi üzrə apardığı siyasət nəticəsində vətənimizin ərazi bütövlüyü tam bərpa edilib.

AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev təqdim olunan kitabı Gəncə alimlərinin İlham Əliyevin ölkə rəhbəri seçilməsinin 20 illiyinə töhfə kimi dəyərləndirib. O, qeyd edib ki, monoqrafiyada cənab İlham Əliyevin bir dəfə Baş nazir qismində, 19 dəfə isə prezident kimi Gəncə şəhərinə etdiyi səfərlərin müfəssəl xronikası, həmin gəlişlərin işığında burada aparılan genişmiqyaslı quruculuq işləri, eləcə də ölkə başçısının ikinci şəhərimizlə bağlı imzaladığı Sərəncam və digər sənədlər, etdiyi çıxışlar, verdiyi tapşırıq və tövsiyələr öz əksini tapıb və istər elmi-kütləvi, istər də tədqiqat xarakterli mötəbər mənbə sayıla bilən bu kitab eyni zamanda, Gəncənin son iyirmi ildə inkişafı üzrə bir ensiklopedik məlumat toplusu xarakteri daşıyır.

Akademik Fuad Əliyev, həmçinin cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin Xankəndində müqədədəs bayrağımızı ucaltmasını bütün azərbaycanlıların həsrətlə gözlədiyi qürurlu an kimi xarakterizə edərək, bu tarixi hadisənin də məhz onun ölkəmizin rəhbəri seçilməsinin 20 ilinin tamam olması günündə gerçəkləşməsinin millətimiz üçün böyük məna daşıdığını vurğulayıb.

YAP Gəncə Təşkilatının sədri Bayram Aslanov öz çıxışında akademik Fuad Əliyevin rəhbərliyi ilə Gəncənin başlıca elm ocağının - AMEA Gəncə Bölməsinin əməkdaşlarının hazırladığı bu sanballı kitabın işıq üzü görməsini əlamətdar hadisə kimi dəyərləndirib. O, "İlham Əliyevin Gəncə şəhərinə səfərləri" nəşrinin bu şəhərdə çalışmaqla, dövlətçiliyimizə xidmət edən hər bir şəxsin stolüstü kitabına çevriləcəyinə inandığını bildirib.

# *Fərhad Quliyev:* "Azərbaycanın arxeologiya elmi dünyaya inteqrasiya olunmuş bir elm sahəsidir"

**Məlumdur ki, Azərbaycanda növbəti arxeoloji qazıntı mövsümü davam edir. Aparılan tədqiqatların istiqamətləri, həyata keçirilən islahatlar və yeni hədəflər haqqında AMEA Arxeoloiya, Etnoqrafiya və Antropologiya İnstitutunun (AEAİ) baş direktoru v.i.e., tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyevlə söhbət edirik.**



**- Bu mövsümdə aparılan tədqiqatlar respublikanın hansı bölgələrini əhatə edib və ümumilikdə neçə arxeoloji ekspedisiya təşkil olunub?**

- Hər il olduğu kimi, bu il də AEAİ-nin baş planında öz əksini tapan konkret mövzulara uyğun olaraq arxeoloji tədqiqatlar aparılıb. Demək olaraq ki, respublikanın bütün bölgələri əhatə edilib. Ekspedisiyalarımız həm əvvəllər tədqiq olunan abidələrdə, həm də yeni arxeoloji abidələrdə qazıntılar həyata keçirir. Tədqiqat işləri əsasən İşğaldan azad olunmuş ərazilərdə (Qarabağ və Şərqi Zəngəzur), Qərb bölgəsi (Gəncə-Qazax), Dağlıq Şirvan, Quba-Xaçmaz, Şamaxı və İsmayıllı, Mil-Qarabağ, Cənub və Naxçıvan bölgələrində aparılır.

AMEA rəhbərliyinin tapşırığına əsasən bütün ekspedisiyaların fəaliyyətinin səmərəliliyini yoxlamaq üçün monitorinq qrupları təşkil etmişik. Qeyd etməliyəm ki, əvvəllər institutumuzda bu sahə üzrə xüsusi şöbə fəaliyyət göstərib və sonradan ləğv edilib. Bu ilin iyulunda AMEA Rəyasət Heyətinin qərarı ilə həmin şöbə yenidən bərpa olunub. Çöl tədqiqatlarının monitorinqi və qiymətləndirilməsi şöbəsində gələcəkdə tanınmış və təcrübəli arxeoloqlarımız çalışması nəzərdə tutulub. Bu il ümumilikdə 40-dan çox ekspedisiya təşkil edilib. Tədqiqatların bir qismi Azərbaycan Respublikası Dövlət Turizm Aqentliyinin (DTA) sifarişi ilə qurumun nəzdində fəaliyyət göstərən bir neçə dövlət qoruğunun ərazisində aparılır. Bu, çox vacib işdir, çünki abidələrin turizm potensialının müəyyən edilməsi və gələcəkdə həmin məkanların UNESCO-nun Mədəni İrs siyahısına daxil edilməsinə yönələn layihələrin əsasını təşkil edə bilər.

**- AMEA Rəyasət Heyətinin 19 iyun 2023-cü il tarixli qərarı ilə institutda daimi fəaliyyət göstərən Qarabağ arxeoloji ekspedisiyası yaradılıb. Zəhmət olmasa, ekspedisiyanın builki fəaliyyəti haqqında məlumat verərdiniz.**

- Hazırda Qarabağ və Şərqi Zəngəzur ərazisində ekspedisiyalar uğurla fəaliyyət göstərir. Faktiki olaraq, AMEA da işğaldan azad olunmuş ərazilərdə ən çox tədqiqat işləri həyata keçirən elmi-tədqiqat müəssisəsi Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutudur. Cari ildə Ağdam, Füzuli, Zəngilan, Xocavənd, Şuşa rayonlarında arxeoloji ekspedisiyalar təşkil olunub. Bu ekspedisiyaların hər birinin öz tədqiqat obyekti və müəllifi vardır. İşğaldan azad olunmuş ərazilərdə arxeoloji tədqiqat işlərinin nəticələri haqqında cari ilin sonunda ətraflı olaraq məlumat veriləcək.

**- Yeri gəlmişkən bu günlərdə UNESCO-dan xoş xəbər gəldi. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Azıx və Tağlar Paleolit dövrü abidələri "Azərbaycanın tarixdən əvvəlki yerləri" adlı nominasiya üzrə ilkin siyahıya daxil edilib. İnstitutunuz bu abidələrlə bağlı hansı işlər görüb?**

- 1960-cı illərin əvvəllərində Azərbaycan arxeoloqları tərəfindən kəşf edilmiş hər iki insan düşərgəsi Cənubi Qafqaz regionunda yazıya qədərki tarixə aid ilk insan miqrasiyasını əks etdirən unikal abidələrdir. Dünya əhəmiyyətli bu abidələr erməni işğalı dövründə separatçı rejim tərəfindən siyasi məqsədlər üçün istifadə edilib. Qarabağ işğaldan azad olunandan sonra Azıx və Tağlar arxeoloji abidələrinə dünya elmi ictimaiyyətinin marağı artaraq müştərək arxeoloji tədqiqatlar üçün xarici ölkələrin elm mərkəzlərindən İnstitutumuza müraciətlər daxil olub. Beləliklə, 35 ildən sonra bu il AMEA AEAİ tərəfindən Azıx və Tağlar arxeoloji komplekslərində Yaponiyanın Tokio Universitetinin mütəxəssisləri ilə birlikdə kəşfiyyat işləri aparılıb və abidələrin bir daha dəqiq dövrlərini müəyyən etmək məqsədilə analizlər üçün nümunələr götürülüb. Həmçinin Danimarkanın Orxus Universiteti Qarabağın Paleolit abidələri ilə bağlı əməkdaşlıq müqaviləsi təklif edib. Hazırda Azıx və Tağlar mağaralarında arxeoloji tədqiqatlar üçün xüsusi layihə hazırlanır. Gələn ildən etibarən hər iki mağaranın kompleks şəkildə öyrənilməsi nəzərdə tutulub.

**- Cari ilin iyununda institutda həmçinin Xəzər arxeologiyası şöbəsi yaradılıb. Şöbənin təşkili nə yerdədir, qarşıya hansı məqsədlər qoyulub?**

